Günəş Şərqdən doğur!
❐ № 200 (5721), 2022-ci il
Qiyməti 40 qəpik
# ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az 2 noyabr 2022-ci il (çərşənbə)

## Böyük Millət Məclisi qərar qəbul edib

### Türkiyə hərbi kontingentinin Azərbaycanda xidmət müddəti daha bir il uzadılıb



**Türkiyə Silahlı Qüvvələrinin hərbi kontingentinin Azərbaycan ərazisində xidmət müddəti daha bir il uzadılıb.**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından təqdim olunan müvafiq qanun layihəsi Türkiyə Böyük Millət Məclisi tərəfindən qəbul olunub.



## Putin Ərdoğanı Soçi görüşü barədə məlumatlandırıb

**Rusiya və Türkiyə prezidentləri Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Soçidəki üçtərəfli görüşünün yekunlarını müzakirə ediblər.**

APA-nın Moskva müxbiri xəbər verir ki, bu barədə Kremlin Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığına dair yaydığı məlumatda bildirilib.

"Telefon danışığında Rusiya Federasiyası Prezidentinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə oktyabrın 31-də Soçidə keçirilmiş üçtərəfli görüşünün yekunları da müzakirə olunub", deyə Kremlin məlumatında qeyd olunub.

# 19 agent tutuldu

### DTX İranın Azərbaycandakı agenturasını ifşa etdi




**İran xüsusi xidmət orqanının nəzarəti altında yaradılmış qanunsuz silahlı birləşmə ifşa edilib.**

Məlumatda deyilir ki, İran xüsusi xidmət orqanları tərəfindən Azərbaycan Respublikası vətəndaşlarının gizli şəkildə ölkə hüdudlarından kənarda hərbi təlimlərə cəlb olunması, onların maliyyələşdirilməsi və fəaliyyətlərinin istiqamətləndirilməsi, Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd olaraq istifadə edilməsi məqsədilə şantaj və digər zorakı üsullarla təsir dairəsində saxlanılması halları ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks araşdırma tədbirləri həyata keçirilir.

(Səh.2)



## Dəm qazından boğulan şəxs Azərbaycan Ordusunun hərbçisi deyil

**Bəzi kütləvi informasiya vasitələrində guya Azərbaycan Ordusunun hərbi qulluqçusu Yusifli Seymur Teymur oğlunun dəm qazından boğularaq vəfat etməsi barədə məlumat yayılıb.**

(Səh.8)

## ABŞ Senatında Cənubi Qafqazla bağlı dinləmə keçiriləcək



**ABŞ Senatının Xarici Əlaqələr Komitəsində ABŞ-ın Cənubi Qafqazdakı siyasətinin qiymətləndirilməsi ilə bağlı müzakirə keçiriləcək.**

(Səh.7)

# Soçi fiaskosu...

### Paşinyan prosesləri Azərbaycanın əleyhinə çevirə bilmədi



**Oktyabrın 31-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü olub.**

Görüşdə çıxış edən Rusiya Prezidenti Vladimir Putin deyib: "Hörmətli həmkarlar, bu gün biz üç sessiyadan ibarət danışıqlar apardıq. Əvvəlcə, Ermənistan nümayəndə heyəti ilə, sonra isə Ermənistanın baş naziri ilə təkbətək danışdıq.

(səh.5)

## Uşaqların dilənçiliyə məcbur edilməsi dəhşətdir

### O insanlarda vicdan və mənəviyyat yoxdur



**Bakıda azyaşlıları dilənçiliyə məcbur edən şəxs saxlanılıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, Bakı Şəhər Baş Polis İdarəsinin Yetkinlik Yaşına Çatmayanlarla Profilaktiki İşin Təşkili Bölməsi, Bakı Metropolitenində Polis Şöbəsinin əməkdaşları ilə birgə keçirilən tədbirlərlə Bakı metrostansiyalarında dörd azyaşlını dilənçiliyə sövq edən 1984-cü il təvəllüdlü R.Məmmədova saxlanılıb.

(səh.9)



## "AMEA bu gün heç bir nüfuzlu beynəlxalq elmi təşkilatın üzvü deyil"

İsa Həbibbəyli: "Ölkəmizdəki doktorantura təhsili SSRİ-dən qalma modeldir"

(səh.3)



## QHT-lərin problemləri başından aşır

Novella Cəfəroğlu: "Qanunları qəbul edəndə millətin yanında olmaq lazımdır"

(səh.6)

## Kiyev susuz qalıb

### İnsanlar saatlarla növbədə dayanmağa məcburdur



**Paytaxt Kiyevdə içməli su üçün uzun növbələr yaranıb. Kiyev sakinləri içməli su üçün saatlarla növbədə dayanmağa məcburdur.**

Ukraynanın həyati əhəmiyyətli enerji təsisatlarının Rusiya hərbi hava qüvvələri tərəfindən raket zərbələrinə məruz qalması nəticəsində həm paytaxt Kiyevdə, həm də ətraf bölgələrdə su qıtlığı yaşanır.

(səh.8)

ŞƏRQ
Müstəqil ictimai-siyasi qəzet
2 noyabr 2022-ci il (çərşənbə)


# Prezident İlham Əliyev Əlcəzairdə

## Dövlət başçısı Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət edib





**Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət edib.**

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Qeyd edək ki, Əlcəzairin azadlığı uğrunda mübarizədə həyatını qurban vermiş döyüşçülərin xatirəsinə ucaldılmış Şəhidlər abidəsi ölkənin müstəqilliyinin 20-ci ildönümü münasibətilə 1982-ci ildə açılıb. Abidənin hündürlüyü 92 metrdir.

Milli Mücahidlər Muzeyi ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, Şəhidlər abidəsinin altında yerləşən və 1984-cü ildə açılmış muzeyin kolleksiyasının böyük hissəsi ölkənin Fransa tərəfindən işğalına və 1830-1962-ci illərdə Fransa müstəmləkəçiliyinə qarşı aparılmış xalq müqavimətinə həsr olunub. Burada rəsm əsərləri ilə yanaşı, müstəmləkəçiliyə qarşı mübarizə aparmış əlcəzairli mücahidlərə aid silahlar, arxiv materialları və döyüş əşyaları, fotoşəkillər və sənədlər, həmçinin müqavimət dövründə fransızların xalq hərəkatı iştirakçılarını cəzalandırmaq üçün istifadə etdikləri edam alətləri nümayiş olunur. Fransa müstəmləkəçiliyinə qarşı hərəkata rəhbərlik etmiş Əmir Əbdülqadirin (Əbdülqadir İbn Muhyiddin) şəxsi əşyaları və silahları, onun 1853-cü ildə fransız rəssam Anj Tisye tərəfindən çəkilmiş və yalnız 1976-cı ildə Fransa tərəfindən ölkəyə qaytarılmış portreti muzeyin ən çox ziyarət olunan kolleksiyaları sırasındadır.

Muzeydə xalq hərəkatının 7 mindən çox iştirakçısının şahid ifadələri toplanıb.

Fransızlar 1830-1962-ci illəri əhatə edən işğal dövründə 1,5 milyondan artıq insanı amansızcasına qətlə yetiriblər. Buna görə də Əlcəzair "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Ümumilikdə 10 milyona yaxın əlcəzairli Fransanın müstəmləkəçilik dövrünün qurbanı olub.

Fransızların Əlcəzairə münasibəti işğal etdikləri digər ərazilərdən fərqli olub. Belə ki, əgər başqa ərazilərin müstəmləkə olduğu qəbul edilirdisə, Əlcəzair Fransanın bir parçası, onun dənizarxası ərazisi sayılırdı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev muzeyin xatirə kitabına aşağıdakı ürək sözlərini yazdı: "Əlcəzair Xalq Demokratik Respublikasına ilk dəfə səfərə gəlməkdən və qardaş Əlcəzair xalqına dərin ehtiramımın ifadəsi olaraq Milli Mücahidlər Muzeyini ziyarət etməkdən şərəf hissi duyuram.

Milli Mücahidlər Muzeyi Əlcəzair xalqının şanlı tarixinin ən faciəli və eyni zamanda, ən qürurverici səhifələrindən birini özündə əks etdirən mühüm kompleksdir. Bu muzey Əlcəzair xalqına qarşı misli görünməmiş qəddarlıqla və şiddətlə həyata keçirilən müstəmləkə siyasətinin, müharibə və insanlıq əleyhinə cinayətlərin, müstəmləkəçi qüvvələrə qarşı ümumxalq mübarizəsinin və bir milyon yarım şəhidin canı bahasına qazanılmış müstəqillik qələbəsinin yaddaşlarda qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

Amansız müstəmləkə əsarətindən qurtulmaq üçün başlanılan azadlıq və müstəqillik mübarizəsi Əlcəzair xalqının böyük şücaətinin, birliyinin, sarsılmaz iradəsinin və qətiyyətinin rəmzi kimi Əlcəzairin tarixinə əbədi olaraq həkk olunmuşdur.

Böyük qurbanlar verərək istiqlaliyyətə qovuşmuş qardaş Əlcəzairin bu gün inkişafını, rifahını görməkdən dost və qardaş ölkənin rəhbəri olaraq böyük qürur hissi keçirirəm.

Milli Mücahidlər Muzeyində mənə göstərilən səmimi qəbula görə təşəkkürümü bildirir, Əlcəzair xalqının qəhrəmanlıq irsinin əbədiləşdirilməsi işində muzeyin fəaliyyətinə uğurlar arzulayıram".

*Sonda qarşılıqlı hədiyyələr təqdim olundu.*



### İlham Əliyev Əlcəzairdə Zirvə toplantısının açılışında iştirak edir

**Noyabrın 1-də Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısı keçirilir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə toplantısına ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun dəvəti ilə tədbirin açılış mərasimində Fəxri qonaq statusunda iştirak edir. Əlcəzair Prezidenti Abdelmacid Tebbun Prezident İlham Əliyevi, Sammitdə iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladı.

*Qeyd edək ki, Ərəb Dövlətləri Liqası 1945-ci il martın 22-də Misir, İraq, İordaniya, Livan, Səudiyyə Ərəbistanı, Suriya və Yəmən tərəfindən yaradılıb. Hazırda təşkilata 22 dövlət daxildir. Təşkilatın mərkəz-qərargahı Misirin paytaxtı Qahirə şəhərində yerləşir. Türkiyə təşkilatda daimi müşahidəçi statusuna malikdir.*

# 19 agent tutuldu

## DTX İranın Azərbaycandakı agenturasını ifşa etdi

**İran xüsusi xidmət orqanının nəzarəti altında yaradılmış qanunsuz silahlı birləşmə ifşa edilib.**

Məlumatda deyilir ki, İran xüsusi xidmət orqanları tərəfindən Azərbaycan Respublikası vətəndaşlarının gizli şəkildə ölkə hüdudlarından kənarda hərbi təlimlərə cəlb olunması, onların maliyyələşdirilməsi və fəaliyyətlərinin istiqamətləndirilməsi, Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd olaraq istifadə edilməsi məqsədilə şantaj və digər zorakı üsullarla təsir dairəsində saxlanılması halları ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks araşdırma tədbirləri həyata keçirilir.

DTX-dən "Şərq"ə verilən məlumata görə, əməliyyat-istintaq tədbirləri ilə müəyyən edilmişdir ki, İran xüsusi xidmət orqanının nəzarəti altında, radikal-ekstremist dini ideyaların aşılanması yolu ilə Azərbaycan Respublikası vətəndaşlarından ibarət gizli yaradılmış qanunsuz silahlı birləşməyə rəhbərlik analoji cinayət əməllərinə görə 2018-ci ildən barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilib, hazırda İranda gizlənən İbrahimbəyli Tohid Alim oğlu, Əsədov Rövşən Elçin oğlu, Məmmədov Orxan Kəmran oğlu, Hacıyev Elşad Elçin oğlu (Əkrəm Hacızadə) və digərlərinə həvalə edilib.

Ötən müddət ərzində qanunsuz silahlı birləşmə tərəfindən əsasən əvvəllər müxtəlif cinayətlərə görə məhkumluğu olan, habelə özlərini "Müsəlman Birliyi Hərəkatı" adlandırdıqları təşkilatın üzvü hesab edən şəxslərin sırasından seçilmiş Azərbaycan Respublikası vətəndaşları üçüncü ölkələrin ərazisindən keçirilməklə İranın Tehran şəhərinə, orada mobil telefon və pasportları götürülməklə, əlaqələrinin gizliliyinə və konspirasiya tələblərinə dair təlimatlandırılmaqla, dini ləqəblər verilərək, təqdim olunmuş saxta sənədlərlə hərbi yük təyyarələrində Suriyanın Dəməşq şəhərinə aparılıblar. Onlar Suriya ərazisində müxtəlif odlu silahlardan istifadə qaydaları və döyüş taktikasının öyrədildiyi hərbi təlimlərə cəlb edilmiş, təlimlərdə iştirak etmiş hər bir şəxsə təqdim olunan qəbzlərə imza etdirməklə müxtəlif məbləğlərdə pul vəsaitləri verilib.




Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri zamanı qanunsuz silahlı birləşmələrin hərbi təlimlərində iştirakı müəyyən edilən 19 nəfər Azərbaycan Respublikası vətəndaşı istintaqa cəlb olunmuş, qanunsuz silahlı birləşmə və onun tərəfindən təşkil edilmiş hərbi təlimlər barədə çoxsaylı dəlillər, qanunsuz yollarla Azərbaycana keçirilmiş müasir inkişaf, dünyəvi dövlət ideyalarına qarşı radikal, dini-ekstremist münasibəti təbliğ edən, yayılması Azərbaycanda qadağan edilmiş müxtəlif kitablar, videomateriallar aşkar edilərək götürülüb.

Cinayət işi üzrə əvvəllər məhkum edilmiş Hüseynov İskəndər Hani oğlu, Haqverdiyev Tural Səfər oğlu, Şükürov Eltun Əli oğlu və digərləri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 279.1-ci *(qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrdə iştirak etmə)* maddələri ilə cinayət məsuliyyətinə cəlb edilərək saxlanılıblar.

Eyni zamanda hazırda İranda məskunlaşmış Ruhulla Axundzadə və digərləri tərəfindən qruplaşma üzvlərinə müxtəlif tapşırıqların verilməsi barədə materiallar da aşkar edilib.

Qruplaşma üzvlərini hərbi təlimlərə cəlb edənlərdən biri olan Əsədov Orxan Fərman oğlu üçüncü ölkə ərazisində terror aktına cəhd edərkən həbs olunub.

Araşdırmalar zamanı həmçinin qeyd olunan hərbi təlimlərə cəlb edilmiş Məmmədov Fəqan Sədrəddin oğlunun daha sonra İranın Azərbaycandakı səfirliyinə məxsus avtomaşınla Azərbaycana çatdırılan, üzərində dini məzmunlu şüarlar yazılmış köynəklərin respublikanın bəzi rayonlarında keçirilməsi planlaşdırılan aksiyaların iştirakçılarına paylanmasını təşkil etməsinə əsaslı şübhələr müəyyən edilib.

Məlum olub ki, qeyd olunan xüsusi xidmət orqanlarının nümayəndələri Ermənistan silahlı birləşmələrinin işğalçı əməllərinə bəraət qazandırmaları ilə əlaqədar aralarında fikir ayrılığı yaranan Azərbaycan Respublikası vətəndaşlarını sonra da təsir dairəsində saxlamaq üçün onları cəlb edildikləri hərbi təlimlərə dair videokadrlarla və digər üsullarla şantaj ediblər.

Hazırda kompleks əməliyyat-istintaq tədbirləri davam edir.

Dövlət Təhlükəsizliyi Xidməti hər hansı qanunsuz silahlı birləşmələrdə iştiraka cəlb edilən Azərbaycan Respublikası vətəndaşlarına qarşı ən kəskin tədbirlərin görüləcəyini, onların ciddi cinayət məsuliyyəti ilə üzləşəcəklərini vurğulayır, xarici xüsusi xidmət orqanlarının hər hansı formada təsir dairəsinə düşmələri barədə ölkənin təhlükəsizlik orqanına vaxtında məlumat vermələrinin zəruriliyinə dair onları xəbərdar edir.






# Mətbuat xidmətlərinin rəhbərləri üçün master-klass təşkil edilib

**MTM (Media Təhlil Mərkəzi) Heydər Əliyev Mərkəzi və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) dəstəyi ilə mətbuat xidmətlərinin rəhbərlərinin peşəkar bacarıqlarının daim təkmilləşdirilməsi və inkişafı, bu sahədə effektivliyin artırılması məqsədilə master-klass təşkil edib.**

"Şərq" Azərbaycanda ilk dəfə xüsusi formatda təşkil edilən master-klassda ölkədə həyata keçirilən media islahatlarına töhfə vermək, medianın hazırkı dinamik mühitdə inkişafını təşviq etmək, jurnalistlərin bilik və bacarıqlarını daha da təkmilləşdirmək məqsədi daşıyır.

Mətbuat xidmətlərinin fəaliyyətinin effektivliyinin artırılmasına xidmət edən master-klass vacib nəzəri mövzuların tədrisi ilə başlayacaq, daha sonra iştirakçılar müzakirələrə qoşulacaq, press-relizlərin hazırlanma forması və sosial media təşəbbüslərinin inkişaf etdirilməsi ilə bağlı sessiyalarda iştirak edəcəklər.

Bundan əlavə, proqrama peşəkar mətbuat ofisinin təşkili; jurnalistlərdən gələn sorğuların səmərəli şəkildə cavablandırılması; onların suallarına vaxtında dəqiq cavab verilməsi; Britaniya və






Amerikadakı hökumət qurumları tərəfindən idarə olunan veb-saytların nümunəsində bütün məlumatların müfəssəl yer aldığı peşəkar veb saytın təşkili; inandırma psixologiyası və digər aktual mövzular daxil edilib.

Dövlət, qeyri-hökumət və digər təşkilatların mətbuat xidmətlərinin rəhbərləri üçün təşkil edilən master-klass London şəhər Universitetinin jurnalistika üzrə professoru Barni Cons aparacaq. Britaniyanın "The Media Society" təşkilatının vitse-prezidenti olan Barni Cons İcmalar Palatasında media məsləhətçisi kimi çalışır. O, "The Andrew Marr Show" və "Breakfast with Frost" siyasi xarakterli televiziya proqramlarının yaradıcısı və aparıcısı olub, PR və müstəqil radio müxbiri kimi çalışıb, sonradan BBC-də bəzi layihələr üzərində işləyib, bir çox siyasi xadimlərdən müsahibələr götürüb.

Müxtəlif sessiyaları əhatə edəcək üç günlük master-klass 1-3 noyabr tarixlərində keçiriləcək.

Məlumat üçün nəzərinizə çatdıraq ki, 2020-ci ilin aprel ayından fəaliyyətə başlayan MTM-in (Media Təhlil Mərkəzi) başlıca missiyası Azərbaycan media məkanının, dövlət və qeyri-hökumət qurumlarının kommunikasiya siyasətinin təhlil və araşdırmalarının aparılması, onların fəaliyyət səmərəliliyinin yüksəldilməsi məqsədilə təkliflərin hazırlanmasıdır.

**Aygün**

# Kreml real təminat istəyir

## Putin Rusiyanın "taxıl sazişi"nə qayıtmaq şərtini açıqlayıb

**Rusiya Prezidenti Vladimir Putin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan telefon danışığında "taxıl sazişi" ətrafında vəziyyəti müzakirə ediblər.**

"Report" xəbər verir ki, bu barədə Kremlin yaydığı məlumatda bildirilib.

Qeyd olunub ki, Qara dəniz limanlarından taxıl ixracına dair Türkiyə tərəfinin iştirakı ilə əldə edilmiş razılaşmaların icrası ilə bağlı mövcud vəziyyətlə bağlı məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparılıb.



Söhbət zamanı Putin həmkarına Rusiyanın "taxıl sazişi"ndə iştirakını niyə dayandırdığı barədə məlumat verib.

İddia edilib ki, guya rəsmi Kiyev Ukrayna taxılının daşınması üçün yaradılmış dəniz humanitar dəhlizindən Sevastopolda Rusiyanın Qara dəniz donanmasının infrastrukturuna və gəmilərinə hücumlar həyata keçirmək üçün istifadə edib.

Rusiya Prezidenti həmsöhbətinə rəsmi Moskvanın bu təşəbbüsdə iştirakının bərpası şərtləri barədə məlumat verib.

"Bu hadisənin baş vermə şəraiti ilə bağlı ətraflı araşdırma aparmaq, həmçinin Kiyevdən İstanbul razılaşmalarına, xüsusən də humanitar dəhlizdən hərbi məqsədlər üçün istifadə edilməməsinə ciddi riayət olunmasına real təminat aldıqdan sonra zəruridir. Yalnız bundan sonra Qara dəniz təşəbbüsü çərçivəsində işlərin bərpası məsələsinə baxmaq mümkün olar"-deyə, məlumatda vurğulanıb.

# Rusiya-Azərbaycan-Ermənistan parlamentlərarası təmasları başlayıb

**Rusiya-Azərbaycan-Ermənistan üçtərəfli parlamentlərarası təmasları üçün məsləhətləşmələr başlayıb.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Rusiya Federasiya Şurasının sədr müavini Konstantin Kosaçev deyib. Onun sözlərinə görə, bu təmaslar iki ölkənin xalqları arasında etimadı gücləndirmək üçün lazımdır: "Biz bu tapşırığı həyata keçirmək üçün Azərbaycan və Ermənistanla ikitərəfli parlamentlərarası komissiyaların mexanizmlərindən istifadə etməyi nəzərdə tutmuşuq".

# NATO Baş katibi noyabrın 4-də Türkiyəyə səfər edəcək



**NATO-nun Baş katibi Yens Stoltenberq noyabrın 4-də Türkiyəyə səfər edəcək.**

"Report" "Anadolu"ya istinadən xəbər verir ki, o, Prezident Rəcəb Tayyib Ərdoğanla görüşəcək.

Tərəflərin İsveç və Finlandiyanın Alyansa üzvlüyünü müzakirə edəcəkləri bildirilib.

Bundan başqa, onlar Ukraynadakı müharibə barədə fikir mübadiləsi aparacaqlar.

*Qeyd edək ki, İsveçin yeni Baş naziri Ulf Kristerson noyabrın 8-də Türkiyəyə səfər edəcək.*

# "AMEA bu gün heç bir nüfuzlu beynəlxalq elmi təşkilatın üzvü deyil"

## İsa Həbibbəyli: "Ölkəmizdəki doktorantura təhsili SSRİ-dən qalma modeldir"

**"Qarabağ" adının yazılışı vahid formada olmalıdır və beynəlxalq arenada "Karabakh" formada əks olunması doğru yanaşma deyil.**

Bunu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik İsa Həbibbəyli Rəyasət Heyətinin çərşənbə axşamı keçirilən iclasında deyib.

İ.Həbibbəyli qeyd edib ki, "Qarabağ" adının yazılışı vahid formada olmalıdır və beynəlxalq arenada "Karabakh" formada əks olunması doğru yanaşma deyil.

"Artıq Türkiyə parlamenti "Türkiyə" adının "Turkey" kimi deyil, "Türkiyə" kimi yazılışı ilə bağlı qərar qəbul edib və düşünürəm ki, biz də "Qarabağ" adının vahid formada "Qarabağ" şəklində yazılışı ilə bağlı müvafiq addımlar atmalıyıq", - deyə o bildirib.

AMEA-nın prezidenti eyni zamanda qeyd edib ki, bu gün ölkəmizdəki doktorantura təhsili SSRİ-dən qalma modeldir. Yalnız doktorant və onun elmi rəhbəri ilə peşəkar kadr hazırlamaq mümkün deyil.



Onun sözlərinə görə, doktorantların tədris planı, təhsil kreditləri, imtahanları olmalıdır və bu istiqamətdə əməli addımların atılması planlaşdırılır.

"Eyni zamanda, elmdə qocalmanın qarşısını almalıyıq. Akademiyada son 7 ildə elmlər doktorluğunu müdafiə edən və yaşı 40-dan aşağı olan yalnız 8 nəfər, yaşı 50-dən aşağı isə 20 nəfərə yaxın elmi işçi var. 10 il sonra necə olacaq? Belə getsə, elmlər doktoru məsələsi ciddi problemə çevriləcək. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var. Dissertantlara, doktorantlara tələbkarlıq da, qayğı da artırılmalıdır" - deyə İ. Həbibbəyli vurğulayıb.

Akademik vurğulayıb ki, son illərdə Akademiyanın beynəlxalq əlaqələri genişlənib, amma etiraf etmək lazımdır ki, bu gün cənab Prezident İlham Əliyevin açdığı magistral istiqamətlərə tam cavab vermir.

O qeyd edib ki, AMEA bu gün Avropa və Avrasiyanın heç bir nüfuzlu beynəlxalq elmi təşkilatının, assosiasiyasının üzvü deyil.

"Asiya Elmlər Akademiyasının üzvü olsaq da, heç bir layihələrində, qrant proqramlarında iştirak etmirik. Beynəlxalq elmi təşkilatlarla əlaqələrimizin genişlənməsi istiqamətində yeni imkanlar açmalıyıq", - deyə İ. Həbibbəyli əlavə edib.

# Putinin məqsədi sülhü uzatmaqdır

## Fuad Abbasov: "Bunun nə qədər davam edəcəyi isə bizim xarici siyasətimizdən asılıdır"



**Azərbaycanın Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putinin oktyabrın 31-də Soçidə keçirilən görüşü baş tutub.**

Görüşdən sonra açıqlama verən Vladimir Putin deyib ki, Azərbaycan və Ermənistan rəhbərləri ilə üçtərəfli görüş 2 saatdan artıq sürüb. O, eyni zamanda hər iki ölkənin nümayəndə heyəti ilə də görüşdüyünü vurğulayıb.

Rusiya prezidenti görüşün faydalı keçdiyini, gələcək mümkün razılaşmalar üçün yaxşı mühit yaradıldığını bildirib: "Bu gün biz birgə bəyanatı razılaşdırdıq. Açığını demək lazımdır ki, hər şey razılaşdırılmayıb, bəzi şeylər əvvəllər mütəxəssislər səviyyəsində işlənmiş mətndən çıxarılmalı idi. Mən belə bir ümumi qiymətləndirmə ilə razıyam ki, görüş faydalı olub və ümumilikdə vəziyyətin tənzimlənməsi istiqamətində sonrakı addımların atılması üçün şərait yaradılıb".

**Putinin açıqlamasını dəyərləndirən tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov "Şərq"ə vurğulayıb ki, bununla Putinin başlıca məqsədi erməni ictimaiyyətinə mesajlar göndərməkdir:** "Erməni cəmiyyəti Paşinyandan Qarabağda "status-kvo"nu yenidən bərpa etməyi tələb edir. Lakin o bunu edə bilmir. Çünki müəyyən öhdəliklər var. Ancaq bunu indi Putin öz üzərinə götürərək çatdırır ki, madam Paşinyan bunu edə bilmir biz edəcəyik. Bu səbəbdən də erməni ictimaiyyətinə mesajlar ötürür ki, həll olunmamış məsələlər var. O bunu "Valday" konfransında da dilə gətirərək demişdi ki, əgər Qarabağda yaşayan ermənilərin hansısa milli xüsusiyyətlərini nəzərə almaq lazımdırsa, biz buna hazırıq.

O, milli xüsusiyyətlər deməklə isə Qarabağ ermənilərinin Azərbaycanda yaşamaq xüsusiyyətləri və onların təhlükəsizliyi məsələsini nəzərdə tutur. Yəni burada Putin özünü onların təhlükəsizliyini təmin edəcək bir faktor kimi təqdim edir.

Bunların hamısı isə Rusiyanın və Putinin Qafqaz siyasətinin göstəricisidir. Sözügedən siyasət Qarabağ probleminin dondurulması və uzun illər davam etməsi yönündə aparılır. Bunun nə qədər davam edəcəyi isə bizim xarici siyasətimizdən asılıdır".

**Nihat Müzəffər**

## Gələn il partiyalara maliyyə yardımı subsidiya qismində veriləcək

**Gələn il siyasi partiyalara ayrılacaq maliyyə yardımının həcmi məlum olub.**

Bu, Hesablama Palatasının 2023-ci il Dövlət büdcəsinin layihəsinə rəyində əksini tapıb.

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi Zərfi"ndə əksini tapıb.

Sənədə əsasən, 2023-cü ildə siyasi partiyalara 5 milyon manat ayrılacaq.

Qeyd edək ki, siyasi partiyalara verilən maliyyə yardımı "malların (işlərin və xidmətin) satınalınması" bölməsinin "sair xərclər" maddəsində nəzərdə tutulmuşdusa, gələn il dövlət büdcəsində bu yardım "qeyri-dövlət müəssisələrinə subsidiyalar" üzrə nəzərdə tutulub.

*Xatırladaq ki, 2022-ci ildə də siyasi partiyalara 5 milyon manat maliyyə yardımı ayrılıb.*

## Taxıl dəhlizi ilə daha 3 gəmi Ukrayna limanlarından yola düşüb



**Rusiyanın "Taxıl sazişi"ni tərk etməsinə baxmayaraq, daha 3 taxılla dolu gəmi Ukrayna limanlarından yola düşüb.**

APA xəbər verir ki, bu barədə Reuters məlumat yayıb.

Qeyd olunub ki, gəmilər bu gün günorta saatlarında limanlardan yola düşüb. Onların hərəkət marşrutu İstanbuldakı Birgə Koordinasiya Mərkəzində Ukrayna, Türkiyə və BMT nümayəndə heyətlərinin iştirakı ilə razılaşdırılıb.

BMT-nin taxıl müqaviləsi üzrə koordinatoru Əmir Abdullah "Taxıl saziş"ində bütün ölkələrin iştirakını təmin etmək üçün iştirakçı ölkələrlə müzakirələri davam etdirib.

# İlin sonuna qədər təhlükə yoxdur

## Hələ ki, Mərkəzi Bank manatı qoruyur



**ABŞ Federal Ehtiyatlar Sisteminin uçot dərəcəsi ilə bağlı yeni qərarını açıqlayacağı gözlənilir. Artıq qlobal birjalar FED-in potensial addımına reaksiya verməkdədirlər. 2022-ci ildə dollar 6 səbət valyutaya nisbətən kəskin möhkəmlənib.**

57 faizini avro təşkil edən səbət valyutalar bu ilin geridə qalan aylarında dollara nisbətən ümumilikdə 20 faizə yaxın dəyər itiriblər. Ötən həftə dollar ilə kursu bərabərləşən avro yenidən ABŞ pulundan ucuz təklif olunur. Avropa Mərkəzi Bankının son qərarına rəğmən, avronun məzənnəsində artımlar müşahidə olunmadı. ABŞ-da son 40 ilin ən yüksək inflyasiyasının müşahidə olunmasına baxmayaraq FED-in qərarları dolları möhkəmləndirməkdə davam edir. Bəs Azərbaycanda da dollar bahalaşa bilərmi?

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə bildirib ki, Azərbaycan Mərkəzi Bankı ilin sonunadək manata təhdidlərin olmadığını bildirib.** Deputatın sözlərinə görə, bununla yanaşı, Mərkəzi Bank tərəfindən mövcud məzənnə siyasəti nəzərə alınmaqla daha uzunmüddətli dövr üçün rəsmi proqnozların elan edilməsi məqsədəuyğun olardı: "Bu, milli valyutada yığımlar və uzunmüddətli sərmayə qoyuluşları, xüsusən də yerli investisiya baxımından da vacibdir. Əvvəllər də qeyd etdiyimiz kimi, manatın məzənnəsinə ölkəyə daxil olan valyutanın həcmi, xüsusən də Dövlət Neft Fondu tərəfindən hərraca çıxarılan valyutanın məbləği təsir göstərir. Neft Fondunun hərraca çıxartdığı vəsaitlərin həcmi dollara olan tələbin ödənilməsində çox önəmlidir. Bu da təbii ki, manatın məzənnəsi baxımından vacib hesab olunur. Təbii ki, xarici ticarət tərəfdaşlarımızda milli valyutalarının məzənnələrindəki dəyişikliklər də iqtisadi faktorlardan biridir. Bütün bunlarla yanaşı, Azərbaycan üzən məzənnə rejiminə keçmədiyi üçün manatın məzənnəsi birbaşa Mərkəzi Bankının qərarından asılıdır. Mərkəzi Bank prosesə tam intervensiya imkanlarını qoruyub saxlayır. Ona görə də manatın məzənnəsinin necə dəyişməsi birbaşa Azərbaycan Mərkəzi Bankının mövqeyindən asılı olacaq".

**İsmayıl**



**Ermənistan Baş naziri Nikol Paşinyan İranda səfərdədir. Paşinyan İran Prezidenti İbrahim Rəisi ilə görüşüb. İran və Ermənistan arasında əməkdaşlığa dair anlaşma memorandumunun imzalanması gözlənilir. İran Prezidenti İbrahim Rəisi deyib ki, Qafqaz regionu İran tarixinin, sivilizasiyasının və mədəniyyətinin bir hissəsidir, biz Qafqaz regionuna həssas yanaşırıq:**

# Tehran regionda zəif halqadır

## İranın molla rejimi son zamanlar Ermənistanın və onun xalqının taleyi ilə oynamağa çalışır

"Qafqazda təhlükəsizlik və sülh İran üçün çox önəmlidir. Bugünkü danışıqlarda belə qənaətə gəldik ki, regional məsələlərin həlli region ölkələrinin əlində olmalıdır və xaricilərin müdaxiləsi nəinki problemləri həll etmir, həm də digər çətinliklər yaradır. Qafqazın imkanları bu regionda təhlükəsizliyə və sülhə zəmanət verə bilər. Ümid edirik ki, bu görüşdə iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılacaq".

**Vətəndaş Həmrəyliyi Partiyası sədrinin müavini Samir Əsədli "Şərq"ə bildirib ki, rəsmi Tehranın son zamanlar "regionda sərhədlərin dəyişməsinə yol verə bilmərik" və Qafandakı baş konsulluğun açılması ilə "Ermənistanın təhlükəsizliyini təmin etmək üçün buradayıq" kimi səs-küy salmasıdır:** "İran tərəfinin dili ilə desək, bu, erməni və fars xalqları arasındakı min illik qardaşlığın bəhrəsidir, amma bu səsin sədası nə qədər uzaqlara yayıla bilər? Bugünkü dünyadan faktiki olaraq təcrid edilmiş, sanksiyalar altında yaşayan İranın molla rejimi son zamanlar "əzələ (güc) nümayişi" üçün Ermənistanın və onun xalqının taleyi ilə oynamağa çalışır. Bəlli məsələdir ki, İranın Azərbaycandan nə qədər silah-sursatı çox olsa da, bir o qədər də siyasi cəhətdən Azərbaycandan zəifdir.

İranın bugünkü şərtlərdə Türkiyə, Rusiya və AB üçbucağında uğurlu balans yaradan Azərbaycan üzərindən regionda çox fəal rol oynaması mümkün deyil. Ona görə də Tehran regionda zəif halqa olan, düşdüyü vəziyyətdən çıxış yolu və yeni dəstək axtaran Ermənistan üzərindən fəal rol oynamağa çalışır. Bunun üçün də Ermənistanın dəstəkçisi olmaqdadır və ermənilərin Zəngəzur həssasiyyətini mühüm bir vasitə kimi fəal istifadə etməkdədir. Ermənistanı dəstəkləmək və Zəngəzur üzərindən gərginlik yaratmaq Qərbdəki erməni diasporunun dəstəyini almaq və imicini yeniləmək baxımından Tehran rejiminə mühüm fürsətlər verir. İranın Qafqazda gərginlik yaratmaq xaricində regionda rolunu ciddi olaraq fəallaşdırmaq imkanı yoxdur. Tehran nə ideolojik gücü, nə də iqtisadi şərtləri ilə regionda uğur qazana bilər".

**İsmayıl Qocayev**

# Soçi fiaskosu...

## Paşinyan prosesləri Azərbaycanın əleyhinə çevirə bilmədi



**Oktyabrın 31-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü olub.**

Görüşdə çıxış edən Rusiya Prezidenti Vladimir Putin deyib: "Hörmətli həmkarlar, bu gün biz üç sessiyadan ibarət danışıqlar apardıq. Əvvəlcə, Ermənistan nümayəndə heyəti ilə, sonra isə Ermənistanın baş naziri ilə təkbətək danışdıq. Daha sonra Azərbaycan nümayəndə heyəti ilə və Azərbaycan prezidenti ilə təkbətək danışdıq və sonra iki saat, bəlkə də bir qədər artıq müddətdə üçlükdə söhbət etdik. Bizim ümumi fikrimizə görə, bu görüş çox faydalı oldu. Məncə, bu görüş bəzi prinsipial məsələlər barədə gələcəkdə mümkün razılaşmalar üçün çox yaxşı ab-hava yaratdı. Bu gün biz birgə Bəyanatı razılaşdırdıq. Açıq deməliyəm, hər şeyi razılaşdırmaq mümkün olmadı. Əvvəlcədən mütəxəssislər səviyyəsində işlənmiş mətndən bəzi hissələri çıxarmalı olduq. Bununla belə, mən ümumi rəylə razıyam ki, görüş faydalı oldu və bu, bütövlükdə vəziyyətin nizamlanması istiqamətində sonrakı addımlar üçün şərait yaradır. Özü də mən bütövlükdə deyəndə həm yaxın keçmişə aid cari hadisələri, həm də iki il bundan əvvəl baş vermiş hadisələri nəzərdə tuturam. Hər halda, o vaxt biz prinsipial məsələlər barədə razılığa gəlməyə nail olduq. Bugünkü diskussiya onu göstərir ki, biz bütün ölkələrimizin gələcəyi barədə də razılığa gələ bilərik. Mən bizim bütün ölkələr dedikdə həm Rusiyanı, həm Azərbaycanı, həm Ermənistanı, həm də bütün region ölkələrini nəzərdə tuturam.

Ona görə ki, bu ərazidə yaşayan bütün xalqlar münasibətlərin normallaşmasında maraqlıdırlar. Rusiya öz tərəfindən, qəti və hərtərəfli nizamlamaya nail olmaq üçün nə mümkündürsə edəcək.

Çox sağ olun. Mən öz həmkarlarıma - həm Ermənistanın baş nazirinə, həm də Azərbaycanın prezidentinə təşəkkür etmək istəyirəm ki, siz Rusiyaya, Soçiyə gəlməyə və bugünkü diskussiyanı aparmağa razılaşdınız.

Razılaşdığımız kimi biz əlaqə saxlayacağıq, bu dialoqu və uzun müddət davam edən bu münaqişəyə nöqtə qoymaq üçün zəruri həllərin axtarışını davam etdirəcəyik".

**Görüşü "Şərq"ə dəyərləndirən siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Soçidə ortaya çıxan yekun bəyanatı üç istiqamətdə dəyərləndirmək olar:** "Birincisi, Rusiyanın əldə etdiyi nəticədir: Moskva təşəbbüsü yenidən ələ alır və sülh sazişinin imzalanmasına hazırlıq prosesində özünə yer edir. Kreml həm iki ölkənin ictimaiyyəti, həm parlamentləri arasında, o cümlədən, humanitar məsələlərdə vasitəçilik etməklə rolunu gücləndirir. Bununla da vasitəçilik etdiyi 10 noyabr, 11 yanvar və 26 noyabr üçtərəfli bəyanatlarının icrasını bir daha aktuallaşdırır və bölgədə Qərbin önünə keçmək addımı atır.

İkincisi, Azərbaycanın əldə etdiyi nəticədir. Bakının gündəliyi aktuallığını qoruyur. Bəyanatda Qarabağ və "status"a dair heç bir ifadənin yer almaması ilə isə bunun daxili məsələsi olduğunu bir daha qəbul etdirir. Bu, xüsusilə Xankəndidəki mitinq və separatçıların gözləntiləri fonunda daha çox əhəmiyyət qazanır və görüşdən öncə Paşinyanın Azərbaycanın qəbul etmədiyi "15 bəndlik rus planı"nı masaya gətirmək cəhdlərinin qarşısını alır. Bununla da rəsmi Bakı sülh müqaviləsi ilə bağlı özünün təqdim etdiyi 5 bəndlik prinsipinin fundamentallığını qoruyur və üçtərəfli razılaşmaların icrası məsələsini bir daha aktuallaşdırır. Bu isə erməni qoşunların Azərbaycan ərazisindən tam çıxarılması, o cümlədən, Naxçıvana "maneəsiz keçid"in (Zəngəzur dəhlizi) verilməsi öhdəliyinin yerinə yetirilməsinin arxa plana keçmədiyi deməkdir. Digər tərəfdən isə ərazi bütövlüyü və sərhədlərin qarşılıqlı tanınması ilə Qərbdə qəbul edilən mövqeyini Rusiya masasında bir daha təsdiq edir.

Üçüncü məsələ isə Ermənistanın əldə etdiyi nəticə, daha doğrusu, İrəvanın görüşdən qazancsız qayıtmasıdır. Xüsusilə də Paşinyanın prosesləri Bakının əleyhinə çevirmək gedişlərinin işə yaramaması fonunda".

**Analitik qeyd edib ki, sənəddə Praqa bəyanatında əksini tapan məqamın - "bütün problemli məsələlər BMT Nizamnaməsi və Alma-Ata bəyannaməsinə uyğun həll etmək" qeydinin təkrar vurğulanması diqqət çəkir:** "Ermənistan Alma-Ata bəyannaməsinin üzərində "iki ölkə ərazi bütövlüyünü 1991-ci ildə qarşılıqlı tanıyıb" iddiasını davam etdirmək, "sərhədi SSRİ dağılanda mövcud inzibati xətlərlə müəyyən etmək" və "Qarabağı hüquqi məsələ" kimi saxlamaq məqsədilə dayanır. Hərçənd ki, BMT Nizamnaməsinin - ərazi bütövlüyünün ön planda olması, eləcə də "Alma-Ata bəyannaməsinin formal xarakter daşıması" bunu sual altına salır. Bu məqamın qeyd olunması Paşinyanı "nəticəsiz yola salmamaq" məqsədi də daşıya bilər.

Lakin "BMT Nizamnaməsi və Alma-Ata bəyannaməsi" qeydi ilə Bakı ərazi bütövlüyünün toxunulmazlığı prinsipinin önə çıxarılması, Brüssel formatını alternativ kimi qalması və sülh müqaviləsinə beynəlxalq zəmanətin əldə edilməsi hədəfinə də oynayır".

**Nihat Müzəffər**

# Putin Bakının mövqeyi ilə razılaşıb

## Sülhməramlıların Qarabağda qalmasına Ermənistan qərar verə bilməz



**"Soçi görüşündə əsas məqamlardan biri də Azərbaycan ərazilərində müvəqqəti yerləşən Rusiya sülhməramlılarının mandatının genişləndirilməsi idi. Moskva bunu istəyirdi, İrəvan gündəmə gətirdi, Bakı qarşısını aldı".**

*Bu sözləri "Şərq"ə açıqlamasında siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, Putinin mətbuat konfransında dediklərindən çıxan nəticələr sülhməramlılar mövzusuna da aydınlıq gətirdi:* "Sülhməramlılar mövzusunda 10 noyabr razılaşmasına istinad qalır. Bu o deməkdir ki, 2025-ci ildə Azərbaycan istəməsə, rus kontingenti Qarabağdan çıxacaq. Paşinyan sülhməramlıların qalma müddətinin uzadılmasını gündəmə gətirsə də, dövlət başçısı İlham Əliyev buna imkan verməyib və Putin Bakının mövqeyi ilə razılaşıb. Digər yandan delimitasiya həll edilsə və sülh müqaviləsi bağlansa, Qarabağ məsələsi kimi rus sülhməramlıların Azərbaycan ərazisindəki fəaliyyəti də bizim daxili işimizə çevriləcək. Kontingentin qalıb-qalmaması mövzusu Rusiya-Azərbaycan-Ermənistan yox, Rusiya və Azərbaycan mövzusu olacaq".

**İsmayıl**

# MEDİA fərdi jurnalist müsabiqəsi elan edib




**Medianın İnkişafı Agentliyi fərdi jurnalist müsabiqəsi elan edib.**

Agentlikdən "Şərq"ə verilən xəbərə görə, "Media haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.4-cü maddəsinə əsasən jurnalist anlayışı ilə əhatə olunan şəxslər müsabiqədə iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək üçün müraciət və ona əlavə edilən sənədlər elektron formada mib.media.gov.az portalı vasitəsilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə təqdim edilir.

Müsabiqənin yekununda yazılar üçün nəzərdə tutulmuş nominasiyaların hər biri üzrə 5 jurnalist, süjetlər üçün nəzərdə tutulmuş nominasiyaların hər biri üzrə isə 2 jurnalist və 2 operator qalib elan edilir və mükafatlandırılır. Müraciət üçün son tarix 15 noyabrdır.

Müsabiqə barədə daha ətraflı məlumatı Agentliyin rəsmi internet saytından (media.gov.az) əldə etmək mümkündür.



# İran-Azərbaycan münasibətləri gərginlik fazasındadır

## "XİN rəhbərləri vəziyyəti sakitləşdirməyə çalışırlar

**"Son vaxtlar İranla Azərbaycan arasında xüsusilə də siyasi əlaqələr gərginlik fazasındadır".**

**Bu sözləri "Şərq"ə siyasi şərhçi Turab Rzayev deyib. Onun sözlərinə görə, vəziyyətin ağırlaşmasında rəsmi Tehranın rəsmi Bakıya qarşı həyata keçirdiyi destruktiv addımlarının, ölkəmizin əleyhinə qarşı fəaliyyətinin böyük rolu var:** "İstər İran sərhədlərinin yaxınlığında qırmızı xəttin elan edilməsi, ən son Qafanda konsulluğun açılması, Azərbaycan sərhədlərində keçirilən hərbi təlimlərdə Araz çayını keçmə manevrləri olsun, hər biri ölkəmizlə düşmənçilik mühiti yaradır.

İran tək bununla kifayətlənmir, dövlətə yaxın media, siyasətçilər, ictimai xadimlər açıq şəkildə ölkəmizə qarşı təhdid mesajları yağdırırlar. Azərbaycanı müharibə ilə, qırmızı xətt pozulduqda rəsmi Bakıya hücum, həmçinin Naxçıvanı işğal etməklə hədələyirlər.

Eyni zamanda Güney Azərbaycandakı soydaşlarımızın insan haqlarının ciddi şəkildə pozulması davam edir. Onlar işgəncə, əziyyət görürlər. Xalqımızın milli dəyərlərinə zərbə vururlar. Həmçinin İranın Azərbaycan və Türkiyə sərhədində hərbi təlim keçməsi məsələsi də artıq açıq mesajdır. Bir dövlətin sərhədində hərbi təlimin keçirilməsi əslində ölkəyə qarşı müharibə elanına bənzər bir aktdır. Aydın məsələdir ki, XİN başçıları mövzunu müzakirə etməyə çalışırlar. Ola bilsin ki, İran tərəfi vəziyyəti sakitləşdirməyə çalışır. Yəni həm Azərbaycan, həm də İran XİN rəhbərləri gərginliyin səngiməsi üçün danışıqlar aparırlar".

*Qeyd edək ki, Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramovla iranlı həmkarı Hüseyn Əmir Abdullahian arasında telefon danışığı baş tutub. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.*

**Sücayət Mehti**

ŞƏRQ Müstəqil ictimai-siyasi qəzet

2 noyabr 2022-ci il (çərşənbə)



# Gələcək danışıqlar Bakının təkliflərinə uyğun aparılacaq

## "Regiona sabitliyin gətirilməsi və Ermənistanın bir dövlət kimi öz mövcudluğunu qoruması bundan asılıdır"



**Oktyabrın 31-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş keçirilib.**

Müzakirə zamanı Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, iki il bundan əvvəl imzalanmış üçtərəfli Bəyannamə çoxillik münaqişəyə son qoydu. İndi Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində danışmaq və hərəkət etmək vaxtı yetişib.

Əlbəttə, biz bu məsələdə Sizin şəxsi rolunuzu yüksək qiymətləndiririk. Bir qədər sonra keçiriləcək bugünkü üçtərəfli görüş bizim ilk görüşümüz olmayacaq. Sizin təşəbbüsünüzlə bu cür görüşlər keçirilib və görürəm ki, normallaşma prosesinə çox yaxşı impuls verib.

Azərbaycan nisbətən yaxın vaxtlarda Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasının əsası olmalı 5 əsas prinsipi irəli sürüb. Bunlar beynəlxalq hüququn fundamental prinsipləridir və mənim fikrimcə, bu əsasda normallaşmaya nail olmaq mümkündür.

Qarabağ münaqişəsi artıq tarixdə qalıb. O, iki il bundan əvvəl həll edilib. Buna görə də bu baxımdan burada praktiki olaraq müzakirə edilməli məsələ yoxdur. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması isə əlbəttə, çox ciddi addımlar tələb edən formatdır. Biz bu məqsədlərə nail olmaq işində bundan sonra da şəxsən Sizin fəal rolunuza və Rusiyanın roluna ümid bəsləyirik. Dəvətə görə bir daha sağ olun.

**Soçi görüşündə çox mühüm açıqlamaların olduğunu deyən millət vəkili Asim Mollazadə "Şərq"ə bildirib ki, ölkə başçısının "Qarabağ məsələsi artıq tarixdir" fikri məsələnin bitdiyinə dair mesajdır:** "Azərbaycan 44 günlük müharibədən sonra bu səhifəni artıq qapatdı. Hazırkı əsas mövzu Azərbaycan və Ermənistan arasındakı əlaqələrdir. Rəsmi Bakı artıq 5 prinsipdən ibarət təklifini verib və bu təklif beynəlxalq hüquq normalarına əsaslanır. Vasitəçilik etmək istəyən bütün ölkə və qurumlar bu prinsipləri qəbul edib. Bu səbəblə də gələcəkdəki danışıqlar sırf həmin mövzuda olmalıdır. Ermənistan yaxın müddətdə Azərbaycanın təklifləri əsasında sülh müqaviləsini imzalamalı, sərhədlərin delimitasiyası və nəqliyyat kommunikasiyalarının açılması məsələsini həll etməlidir. Çünki regiona sabitliyin gətirilməsi və Ermənistanın bir dövlət kimi öz mövcudluğunu qoruması bundan asılıdır".

**Nihat Müzəffər**

# İran Allahşükür Paşazadəni "vurmağa" başladı

## Şeyx bu ölkənin mediası və SEPAH-a bağlı sosial media kanallarının hədəfinə çevrilib



**Qafqaz Müsəlmanları İdarəsinin başçısı Allahşükür Paşazadə bir neçə gün bundan öncə İranla bağlı verdiyi müsahibədən sonra bu ölkənin mediası və SEPAH-a bağlı sosial media kanallarının hədəfinə çevrilib.**

İran mediası onu səlahiyyətsiz, iradəsiz şəxs adlandırmaqla yanaşı, şeyxi "sionistlərə qulluqda" ittiham edib.

Milli.Az bildirir ki, sözügedən media orqanları bununla yanaşı Allahşükür Paşazadəni Azərbaycanda həbsdə olan dindarları müdafiə etmədiyi üçün tənqid ediblər.

Qaralama kampaniyasına Azərbaycanda axtarışda olan və İrana sığınan "Hüseyniyyun" qruplaşmasının sosial media kanalları da qoşulub.

Bir neçə gün bundan öncəyə kimi Qafqaz Müsəlmanları İdarəsinin sədrinə qarşı ehtiyatlı davranan adıçəkilən qruplaşmanın üzvləri indi şeyxin "Şeytana biyət etdiyini" yazır, onu casus adlandırırlar.

*Xatırladaq ki, Allahşükür Paşazadə "Real TV"yə verdiyi son müsahibəsində İranın Azərbaycan Respublikasına qarşı mövqeyindən təəccübləndiyini deyib.*

*"Amma mən indiyədək elə bilmişəm ki, mənə bir şey olsa, qardaşlarım gəlib məni xilas edəcəklər. Bu gün mənim o ümidim qırıldı. Mən kimə inanım? Mənim qardaşım məni erməniyə satdı", - deyə Şeyx müsahibəsində İran hökumətini nəzərdə tutaraq bildirib.*

# QHT-lərin problemləri başından aşır

## Novella Cəfəroğlu: "Qanunları qəbul edəndə millətin yanında olmaq lazımdır"

**Dünən Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin təşkilatçılığı ilə "Parlament-QHT əməkdaşlığının gücləndirilməsi" mövzusunda iclas keçirilib. Parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli QHT-lərlə görüşlərin, müzakirələrin faydalı olduğunu bildirib. O, geosiyasi vəziyyətdən danışaraq, həmrəy olmağın vacibliyini vurğulayıb.**

Vətən müharibəsində qazanılan Zəfərdən sonra Azərbaycanın regionda yeni reallıqlar yaratdığını qeyd edib. QHT-lərin fəaliyyətindən və vaxtilə bu sahədə müəyyən nöqsanların mövcudluğundan danışan Fəzail İbrahimli bildirib ki, "QHT-lər haqqında" qanun qəbul edildikdən sonra Azərbaycan qanunvericiliyində bu sahədə tənzimləmə təmin olunub. Azərbaycanın sabitliyin, təhlükəsizliyin bərqərar edildiyi bir ölkə olduğunu vurğulayan komitə sədri qeyd edib ki, hər birimiz bütün gücümüzlə, birliyimizlə dövlətimizə, dövlətçiliyimizə xidmət edirik.

İctimai birliklər və dini qurumlar komitəsinin üzvü, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədri Azay Quliyev çıxış edərək parlament-QHT əməkdaşlığı mövzusunda müzakirələrin səmərəli olacağına inamını ifadə edib. Bu sahədə dövlətin yürütdüyü siyasət və gördüyü işlərin təqdirəlayiq olduğunu söyləyib. Bildirib ki, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ölkəmizin maraqlarının dünyada qorunması məsələsində daha fəal olmalıdırlar.

**İslahatçı Qadınlar və İnnovasiyalar İctimai Birliyinin sədri Vüsalə Hüseynli hesab edir ki, Azərbaycanda ayrı-seçkiliklə bağlı qanunun qəbuluna ehtiyac var. Onun sözlərinə görə, yerli universitetlərin nüfuzunun artırılması üçün də addımlar atılmalıdır:** "Təklif edirəm qırmızı diplomla yerli universiteti bitirənlər imtahansız işə qəbul olsunlar. Artıq cəmiyyətdə elə fikir formalaşıb ki, ancaq xaricdə təhsil alan gənclərə yaşıl işıqdır. Yerli universitetlərlə bağlı stimulu artırmalıyıq".

Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin prezidenti İlqar Hüseynli televiziya verilişlərində iştirak edən QHT ekspertlərinə qonorar verilməsini, az ödənişlə QHT-lərin ofislə təminatına şərait yaradılmasını, kiçik qrantlar zamanı məcburi dövlət sosial sığorta haqqının tutulmamasını təklif edib.

**"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli deyib ki, "I Qarabağ müharibəsi əlilləri var ki, uzun müddət əlil arabasında yaşayıb:** "Onlara baxan həyat yoldaşları var. O xanımların 65 yaşı olmasa, dünyasını dəyişən qazinin pensiyasını onlara vermirlər. O xanımlar ömrünü həmin qazilərə baxmaqla keçiriblər, ingilis dili bilmirlər, necə dolansınlar?! Digər tərəfdən, qanun Milli Qəhrəmanın övladını təhsil haqqından azad etmir, əlilin, qazinin və şəhidin övladlarını təhsil haqqından azad edir. Amma qanun əlilin özünü təhsil haqqından azad etmir. Bizim Silahlı Qüvvələrimiz Türkiyə modelinə keçir. Türkiyədə bu məsələlər çox gözəl tənzimlənir. Biz Silahlı Qüvvələrdə Türkiyə modelini seçiriksə, əlil və zabitlərə, şəhid ailələrinə münasibətdə də Türkiyə modelini seçməliyik. Səbuhi Əhmədovun təcrübəsinə baxaq. Şəhid qardaşına şəhid ailəsi statusu tanınmadı. Qanuna dəyişiklik edilməlidir ki, əgər şəhidin ata-anası yoxdursa, onun qardaş və bacılarına bu status tanınsın".

"Ölkədən çıxarılmış xarici fondlardan maliyyələşənlər bu gün ermənidən daha kəskin çıxışlar edir"



**Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu deyib ki, ölkədən çıxarılmış xarici fondlardan maliyyələşənlər bu gün ermənidən daha kəskin çıxışlar edir:** "Bu gün deyirlər ki, QHT-lərə dəstək verən xarici fondları ölkədən çıxarıblar. Amma o fondlar bu gün ölkədə işləyir". N.Cəfəroğlu bildirib ki, həmin fondlardan onlara gələn pul kəsilsə də, dövlətin əleyhinə olanlarla o fondlar bu gün çox yaxşı işləyir: "Milyonlarla pul ayırırlar. Həmin fondlardan maliyyələşənlər bu gün beynəlxalq qurumlarda ermənidən daha kəskin çıxışlar edirlər. Qanuna dəyişikliyə görə, bu gün bizim ABŞ-la əlaqəmiz qalmayıb. Qanunları qəbul edəndə millətin yanında olmaq lazımdır. Bu gün Prezident deyir ki, hər bir azərbaycanlının yanındadır. Xahiş edirəm, siz də qanunları qəbul edəndə millətin yanında olun". Novella Cəfəroğlu "Qazilər haqqında" qanunun qəbul edilməsini təklif edib. O bildirib ki, bu gün bədənində qəlpə olan qazilərə əlillik verilmir: "Qanunda bunu dəyişmək lazımdır. Qanunları qəbul edəndə qazi məsələsinə xüsusi diqqət etmək lazımdır. İsraildə əsgərliyə gedən oğlanları və qızları 3 il pulsuz oxudurlar. İsraildə yaralanan əsgərlərə isə ömrünün axırına kimi pensiya verirlər. Bu təcrübələr öyrənilməlidir. Qazilər bizim üçün şərəfdir. Qanun qəbul edəndə onları nəzərə almaq lazımdır".

**İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin sədri Samir Əliyev QHT-hökumət əməkdaşlığına diqqətin artırılmasın vacib sayıb.**

Azay Quliyev bildirib ki, Milli Məclis QHT-lərdən digər qanunlarla bağlı təklifləri dinləməyə hazırdır.

**İsmayıl**

# Akarla Şoyqu “Taxıl dəhlizi”’ni çözüb

## “Kremlin planları öz əleyhinə çevrilib”

**”Taxıl dəhlizi”ni qapamaq cəhdi Rusiyanın aciz duruma düşdüyünü göstərir. Son vaxtlar Kremlin qurduğu bütün planlar, atdığı radikal addımlar hazırda Rusiyanın əleyhinə çevrilməyə başlayıb”.**

**Bunu ”Şərq”ə açıqlamasında politoloq Elçin Xalidbəyli deyib.**



Analitik bildirib ki, Rusiya uzun müddət enerji resurslarından beynəlxalq rəqiblərinə qarşı silah kimi istifadə etməyə çalışırdı. Hətta Kreml ”Şimal axını-1” və ”Şimal axını-2” boru kəmərini sıradan çıxarmaqla, Ukraynaya dəstək verən, Rusiyaya sanksiya tətbiq edən Avropa ölkələrinə enerji zərbəsi vurmağa cəhd göstərdi:

”Bəzi məlumatlara görə, Kremlin ABŞ və Qərbə yönəlik ittihamlarının əksinə olaraq, bu iki boru kəmərində diversiya Rusiya xüsusi xidmət servisləri tərəfindən törədilib. Ancaq Rusiyanın gözlədiyi effektlə nəticələnmədi.

Kremlin nüvə silahı ilə təhdidləri də artıq iflasa uğramaq üzrədir. Rusiyanın nüvə arsenalı barədə mövcud olan təsəvvürlər də miflərdən ibarət imiş. Rusiya nüvə müharibəsinə cəsarət göstərəcək imkanlara sahib deyil.

İndi Kreml son təzyiq imkanlarından istifadə etməyə çalışır. Rusiyanın Qara dəniz donanmasına edilən hücum da elə Kremlin öz planı əsasında reallaşdırıldığına dair məlumatlar mövcuddur. Rəsmi Moskva ”Taxıl dəhlizi” ilə bağlı anlaşmadan çıxmaq üçün bəhanə qazanmağa səy göstərir. Ancaq Rusiya yenə böyük səhv etmiş oldu”.

Siyasi şərhçinin fikrincə, Türkiyə ”Taxıl dəhlizi”ndə əsas qarantor ölkədir. Rəsmi Ankara sözügüdən dəhlizin fəaliyyət göstərməsində birbaşa maraqlıdır: ”Rusiyanın ”Taxıl dəhlizi” anlaşmasından çıxdığını bəyan etməsindən sonra rəsmi Ankaranın atdığı addımlar da Türkiyənin bu məsələdə prinsipial mövqe tutduğunu göstərir. Türkiyə BMT ilə ortaq şəkildə ”Taxıl dəhlizi”nin fəaliyyətini təmin etmək niyyətində olduğunu bildirib. Rusiyanın iştirakı olmadan da bir neçə yük gəmisinin təhlükəsiz hərəkəti təmin olunub. ”Taxıl dəhlizi”nin Rusiyanın iştirakı olmadan da fəaliyyət göstərə biləcəyi haqqında Kremlə ismarış açıq ötürülür.

Böyük ehtimalla Türkiyənin Müdafiə naziri Hulusi Akar da Rusiyanın Müdafiə naziri Sergey Şoyqu ilə bu mövzunu müzakirə edib. Yəqin əvvəlcə Rusiyanın anlaşmada iştirakını davam etdirməsi məsləhət olunub. Eyni zamanda, ”Taxıl dəhlizi”nin Rusiyasız fəaliyyət göstərə biləcəyinə eyham vurulub. Nəhayət, Rusiya iştirak etmədiyi təqdirdə ”Taxıl dəhlizi”nə kənardan problem yaratmamalı olduğuna işarə edilib.

Rusiyanın ”Taxıl dəhlizi”ni qapatmaq cəhdləri də iflasa uğramaq üzrədir. Çünki, Türkiyə və BMT ”Taxıl dəhlizi”nin fəaliyyətini Rusiyanın iştirakı olmadan da təmin etməyin mümkünlüyünü sübuta yetiriblər”.

*Qeyd edək ki, Rusiyanın Müdafiə naziri Sergey Şoyqu türkiyəli həmkarı Hulusi Akar ilə telefonla taxıl sazişini müzakirə edib.*

*Söhbət zamanı Qara Dəniz Taxıl Təşəbbüsü çərçivəsində Ukrayna limanlarından kənd təsərrüfatı məhsullarının ixracına dair sazişlər barəsində müzakirələr aparılıb.*

**Aygün Tahir**

# İranda azərbaycanlı qadın vəkil həbs edildi

## Xəbər oktyabrın 31-i gecə saatlarında yayılıb



**Şərqi Azərbaycan Vəkillər Birliyinin üzvü, təbrizli vəkil Negin Kəyani həbs edilib.**

Bizim.media xəbər verir ki, azərbaycanlı vəkilin iki həftə bundan öncə saxlanılmasına baxmayaraq, həbsi barədə xəbər oktyabrın 31-i gecə saatlarında yayılıb.

Onun tutulmasına səbəb Təbrizdə keçirilən etirazlara qatıldıqları üçün həbs edilənlərin müdafiəçisi və vəkili kimi fəaliyyət göstərməsi olub.

Digər azərbaycanlı vəkil Cəfər Əfşarniya özünün sosial media hesabında etdiyi paylaşımda Negin Kəyaninin nədə ittiham olunduğu barədə rəsmi iddia irəli sürülmədiyini və qeyri-müəyyən vəziyyətdə saxlanıldığını yazıb.

*Qeyd edək ki, oktyabrın 15-də Güney azərbaycanlı vəkillər Qasım Bodi, Sina Yusifi və Əmir Mehdipur da saxlanılıblar.*

# ABŞ Senatında Cənubi Qafqazla bağlı dinləmə keçiriləcək



**ABŞ Senatının Xarici Əlaqələr Komitəsində ABŞ-ın Cənubi Qafqazdakı siyasətinin qiymətləndirilməsi ilə bağlı müzakirə keçiriləcək.**

APA xəbər verir ki, Senatın müvafiq Komitəsində dinləmələr noyabrın 16-da baş tutacaq.

Dinləmələrdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid və ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş məsləhətçisi Filip Riker çıxış edəcəklər.



# Soçi görüşü isbat etdi

## Erməni ekspert: “Nəticələr rəsmi İrəvanın uğursuzluğunu göstərdi”

**Soçi sammitinin nəticələri, eyni zamanda, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin birgə bəyanatı rəsmi İrəvanın uğursuzluğunu isbat edir.**

APA ”Sputnik Armenia”ya istinadən xəbər verir ki, bunu erməni siyasi ekspert Viqen Akopyan deyib.

Ekspertin sözlərinə görə, hərçənd İrəvan və Bakı arasında münasibətlərin tənzimlənməsi üçün təklif edilmiş Rusiya modeli qəbul olunmasa da, hər hansı şifahi razılıqların əldə olunması da istisna deyil.

Akopyan Praqa prosesinin davam etdiriləcəyini düşünür.

O hesab edir ki, Soçidə qəbul olunmuş üçtərəfli bəyanatda qondarma ”Dağlıq Qarabağ”ın adının çəkilməməsi, öz müqəddəratının təyin etmə hüququnun qeyd edilməməsi və Azərbaycan Silahlı Qüvvələrinin guya Ermənistanın suveren ərazisində olmasına dair iddianın öz əksini tapmaması nəticə etibarı ilə Ermənistan tərəfi üçün ciddi uğursuzluqdur.

# Mitinq əmri!

## Xankəndi Rusiyanın “son qalası”dır

**Bir neçə gün öncə Xankəndidə, Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasında separatçı qrupa dəstək aksiyası ilə bağlı müəyyən iddialar gündəmdədir. Deyilənə görə, aksiyada könüllü-məcburi qaydada 15 minə qədər insan iştirak edib.**

Bildirilib ki, mitinq iştirakçıları Ermənistandan Laçın dəhlizi vasitəsi ilə Xankəndinə daşınıblar. Ermənistan KİV-lərində yayılan məlumatlara görə, mitinq Rusiyanın Qarabağdakı sülhməramlı kontingentinin komandiri, general-mayor Andrey Volkovun təşəbbüsü ilə baş tutub. Volkov bildirib ki, əgər Ermənistan nizamlanmanın Rusiya variantından imtina edərsə, sülhməramlı missiya Qarabağı tərk edəcək.

**Politoloq Azər Niftiyev ”Şərq”ə bildirib ki, Xankəndi mitinqinin təşkil olunmasında Rusiyanın bilavasitə rolu var. Ekspert vurğulayıb ki, Rusiya post-sovet məkanında hər zaman təzyiq metodlarından istifadə edib:**

”Bu, Azərbaycan və Ermənistana münasibətdə də öz əksini tapıb. Fərqli münaqişələri stimullaşdırmaqla, onların ömrünü uzatmaqla öz dominant mövqeyini qorumağa çalışıb. Qarabağ münaqişəsinə də münasibət eyniylə belə olub. Revanşist qüvvələrin Ermənistanda hakimiyyətə gəlməsində və həmin postda uzun müddət qalmasında məhz Kremlin dəstəyi ilə öz siyasi ömürlərini uzadırdılar. ABŞ, Avropa, bütövlükdə Qərb dairələri Rusiyaya qarşı kəskin münasibət sərgiləməkdədir. Ukrayna ilə müharibə aparan Rusiya ən sərt sanksiyalara məruz qalmaqdadır. Ölkə beynəlxalq münasibətlər sistemindən təcrid olunub.




Kreml nəyin bahasına olur-olsun keçmiş sovetlər məkanında qalmağa çalışır

Ukraynada istədiyini ala bilmədiyini görən, hər cəhətdən məğlub olduğunu dərk edən Rusiya keçmiş sovetlər məkanında nəyin bahasına olur-olsun qalmaq niyyətindədir. Azərbaycan diplomatik siyasətdə Türkiyə ilə birgə addımlar atır. Rəsmi Bakının Ankara ilə ortaq hərəkəti, müstəqil siyasət yürütməsi Kremli qane etmir. Ona görə də bir neçə istiqamətdə Azərbaycana təzyiq göstərməyə çalışır”.

**A.Niftiyev vurğulayıb ki, Xankəndi və ətraf bölgədə yaşayan ermənilər Rusiyanın Azərbaycandakı ”son qalası”dır**: ”Kreml nəyin bahasına olur-olsun ”son qalası”nı tərk etmək istəmir. O baxımdan şübhə yox ki, Xankəndi mitinqi birbaşa Moskvanın senarisidir. Ermənistandan Xankəndinə avtobuslarla erməni daşınması da Rusiyanın təşkilatçılığı ilə reallaşıb. Bütün hazırlıq prosesi Rusiya sülhməramlıları kontingentinin başçısının gözü qarşısında baş verib. Birbaşa iştirakçı olmasa belə, baş verənlərə göz yumması faktı onun da məsuliyyət daşımasını şərtləndirir. Ancaq prosesə ümumilikdə baxsaq isə rus sülhməramlılarının rəhbərinin də iştirakçı olduğunu söyləyə bilərik. Rusiya təzyiq siyasəti ilə regionda öz varlığını qorumağa çalışır”.

**İsmayıl Qocayev**



# Sülhə doğru növbəti addım...

## Soçi görüşünü Bakı üçün uğurlu saymaq olar

**Oktyabrın 31-də Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Soçidə keçirilən üçtərəfli görüşü baş tutdu. 3 saat davam edən görüş 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyanatın birinci ildönümünə həsr edilmişdi. Görüşdə sabitliyin güclənməsi istiqamətində atılacaq addımlar və Qarabağda dinc həyatın bərqərar olmasına dair məsələlər müzakirə edilib.**

Ermənistanın böyük ümid bəslədiyi Soçi görüşü bu dəfə də ermənilər üçün uğursuz oldu. Üçtərəfli görüşdən əvvəl prezidentlər Vladimir Putin və İlham Əliyevin keçirdikləri təkbətək görüşdə artıq görüşün taleyi həll olunmuşdu. Dövlət başçısı ikitərəfli görüşdə Azərbaycanın mövqeyini qəti şəkildə bildirdi - "Qarabağ münaqişəsi artıq tarixdə qalıb. O, iki il bundan əvvəl həll edilib. Buna görə də bu baxımdan, burada praktiki olaraq müzakirə edilməli məsələ yoxdur".

Əvvəlki görüşlərdə olduğu kimi, bu dəfə də Azərbaycan diktə edən tərəf oldu. Baxmayaraq ki, Ermənistan rəhbərliyi bu görüşə "xüsusi hazırlıq" görmüşdü, yenə də bütün cəhdləri fiaskoya uğradı.

Soçidə liderlərin üçtərəfli görüşünün yekunları ilə bağlı Soçi bəyanatı qəbul olundu. İrəvanla Bakı arasında sülh müqaviləsinin əsasını təşkil edəcək sənəddə Qarabağla bağlı bir söz belə yer almadı: "Biz Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının Baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin 2022-ci il oktyabrın 31-də Soçidə görüşdük və 9 noyabr 2020, 11 yanvar və 26 noyabr 2021-ci il üzrə üçtərəfli bəyanatların icrasını müzakirə etdik. Azərbaycan-Ermənistan münasibətlərinin hərtərəfli normallaşması, Cənubi Qafqazda sülhün, sabitliyin, təhlükəsizliyin və davamlı iqtisadi inkişafın təmin edilməsi naminə bütün bu sazişlərə ciddi əməl etməyə bir daha sadiqlik nümayiş etdirilib. Biz humanitar məsələlər də daxil olmaqla, qalan vəzifələrin təcili həllinə yönəlmiş əlavə səylər göstərməyə razılaşdıq". Bəyanatda Rusiya sülhməramlı kontingentinin yerləşdiyi zonada təhlükəsizliyin təmin edilməsinə əsas töhfəsi qeyd edilir. Onun regionda vəziyyətin sabitləşdirilməsi istiqamətində vacibliyi vurğulanır: "Biz güc tətbiq etməkdən və ya onun tətbiqi ilə hədələməkdən çəkinməyə, bütün problemli məsələləri BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq yalnız suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə edərək həllinə razılaşdıq". Bununla yanaşı, bəyanatda regionda davamlı və uzunmüddətli sülhə nail olmaq üçün Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasına fəal hazırlığın vacibliyi bildirilib. Tərəflər arasında mövcud imkanlar əsasında qarşılıqlı məqbul həll yollarının axtarışının davam etdirilməsi razılaşdırılıb. Liderlər Rusiyanın yardımı ilə ictimaiyyət nümayəndələri, ekspertlər və dini liderlər arasında dialoqun davam etdirilməsi üçün müsbət atmosferin yaradılmasının, üçtərəfli parlamentlərarası təmasların başlanmasının vacibliyini qeyd ediblər.

Rusiya dövlət başçısı V.Putin vurğulayıb ki, Rusiya, Azərbaycan və Ermənistan gələcəklə bağlı razılığa gəlmək bacarıqlarını nümayiş etdiriblər. O qeyd edib ki, Rusiya Azərbaycan və Ermənistan arasında yekun nizamlanmaya nail olmaq üçün hər şeyi edəcək: "Bizim ümumi fikrimizə görə, bu, faydalı görüş oldu. Fikrimcə, bu görüş gələcəkdə bir sıra prinsipial məsələlərin həlli üçün yaxşı atmosfer yaratdı. Bu gün biz birgə bəyanatı razılaşdırdıq. Açıq deməliyəm ki, hər şey razılaşdırılmayıb".

> Prezident İlham Əliyev növbəti dəfə Azərbaycanın mövqeyini qətiyyətlə müdafiə etdi

**Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Araz Aslanlı deyib ki, forma baxımından üçtərəfli görüşlərdə nəhayət ki, "yamuk" masadan "dəyirmi masa"ya keçid oldu. Analitikin sözlərinə görə, öncəki görüşlərdə istifadə olunan masa Rusiyanın məsələyə dair uzun illər davam edən yanaşması kimi qüsurlu formada idi:** "Ümid edirik ki, bir daha o formada olan masada görüş keçirilməz. Mahiyyət baxımından öncəkilərdən fərqli olaraq budəfəki görüşdən sonra sadəcə Vladimir Putin danışdı. Ermənistan nümayəndə heyəti ilə və sonra Nikol Paşinyanla, ardınca Azərbaycan nümayəndə heyəti ilə və sonra dövlət başçısı İlham Əliyevlə görüşdüklərini, daha sonra isə sadəcə üç liderin iştirakı ilə keçirilən görüşün 2 saatdan artıq çəkdiyini, öncədən ekspert səviyyəsində razılaşdırılmış mətndə dəyişikliklər edildiyini açıqladı. Putin normallaşmanın regionun bütün ölkələrini və xalqlarını əhatə etməli olduğunu bildirdi. Burada Türkiyənin təklif etdiyi 3+3 modelinin nəzərdə tutulduğu, yoxsa sətiraltı başqa mənada işlədildiyi tam aydın olmadı. Son təxribatlara görə, Azərbaycan cəmiyyətinin müəyyən hissəsində bu görüşlə bağlı narahatlıq var idi. Amma Prezident İlham Əliyevin Vladimir Putinlə ilk görüşdəki açıqlamaları həmin təbəqəni də əsasən rahatlaşdırmışdı. Açıqlanan birgə bəyanatda Azərbaycanı narahat edən, Ermənistan tərəfinin gözləntilərini ifadə edən hər hansı məqama yer verilmədi. Eyni şəkildə Azərbaycanın gözləntisinin əksinə olaraq kommunikasiya xətlərinin açılması ilə bağlı məqama da toxunulmadı. Yenilik demək olar ki, yox idi. Ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı kimi məqamlar yenidən vurğulandı. Ümumi götürəndə üçtərəfli bəyanatı son günlərin gərginliyi və təzyiqli atmosferi fonunda Azərbaycan üçün uğurlu saymaq olar. Amma təbii ki, bəyanatdan daha vacibi detalları bilmədiyimiz 3 lider arasındakı qapalı 2 saatdan artıq davam edən görüşdür. Ondan daha vacibi isə 44 günlük müharibədə başlayan xətti qorumaq və sülh prosesini mümkün qədər tez yekunlaşdırmaqdır".

**Millət vəkili Ceyhun Məmmədov da bildirib ki, Prezident İlham Əliyev növbəti dəfə Azərbaycanın mövqeyini qətiyyətlə müdafiə etdi. Deputatın sözlərinə görə, görüşün çətin keçəcəyi ilə bağlı əvvəlcədən müxtəlif proqnozlar verirdilər:** "Azərbaycan cəmiyyətində də təbii olaraq müəyyən narahatlıqlar müşahidə olunurdu. Rusiya və Ermənistan rəsmilərinin görüş qabağı bütün bəyanatlarına, Ermənistanın təxribat və pozuculuq cəhdlərinə baxmayaraq Prezident İlham Əliyev Soçi görüşündə Azərbaycanın prinsipial və qətiyyətli mövqeyini növbəti dəfə uğurla müdafiə etdi. Keçmiş münaqişənin iki il bundan əvvəl həll olunduğunu açıq və qəti şəkildə təkrarladı. Heç şübhəsiz ki, görüş ərəfəsində Paşinyanın və Qarabağ separatçılarının başçılarının verdiyi açıqlamalar, təşkil etdikləri mitinq təsadüfi deyildi. Onlar bu addımlarla müəyyən mesajlar verərək Azərbaycana təsir edəcəklərini düşünürdülər. Qeyd etmək lazımdır ki, Paşinyanın bütün təxribat və cəhdlərinə baxmayaraq Soçi görüşündə imzalanan yekun bəyanatda Qarabağla bağlı Ermənistanın istədiyi formada heç bir bənd öz əksini tapmadı. Qarabağ və orada yaşayan erməni əhalinin "statusu"ndan bəhs olunmadı. Bu isə öz növbəsində Qarabağla bağlı bütün məsələlərin Azərbaycanın daxili işi olduğu anlamına gəlir.

Ermənistan, eləcə də Qarabağdakı separatçılar anlamalıdırlar ki, bütün təzyiq və təxribat cəhdlərinə baxmayaraq Azərbaycan Qarabağla bağlı niyyət və məqsədindən bir addım da geri dönməyəcək. Ermənistan vaxt itirmədən konstruktiv mövqe nümayiş etdirməli, 9-10 noyabr razılaşmasına əməl etməli, öz qeyri-qanuni hərbi silahlı birləşmələrini Qarabağdan çıxarmalı, Zəngəzur dəhlizinin açılmasını təmin etməli, bölgəyə sülhün gəlməsinə mane olmamalıdır".

**İsmayıl Qocayev**



# Kiyev susuz qalıb

## İnsanlar saatlarla növbədə dayanmağa məcburdur

**Paytaxt Kiyevdə içməli su üçün uzun növbələr yaranıb. Kiyev sakinləri içməli su üçün saatlarla növbədə dayanmağa məcburdur.**

Ukraynanın həyati əhəmiyyətli enerji təsisatlarının Rusiya hərbi hava qüvvələri tərəfindən raket zərbələrinə məruz qalması nəticəsində həm paytaxt Kiyevdə, həm də ətraf bölgələrdə su qıtlığı yaşanır. Kiyev bələdiyyəsinin başqanı Vitali Klıçko paytaxt sakinlərinin 40 faizinin susuz qaldığını, 270 min evin elektrik enerjisinin kəsildiyini deyib. Rusiya tərəfi isə Kiyevə hava hücumlarının Qara dəniz donanmasına hücuma qarşılıq olduğunu elan edib. Ukrayna Prezidenti Volodimir Zelenski isə xalqını elektrik enerjisinə qənaət etməyə çağırıb. Bunun ardınca paytaxtda küçə işıqları söndürülür artıq, elektriklə işləyən trolleybuslarsa avtobuslarla əvəzlənib. İçməli su qıtlığı yaşayan ukraynalılar küçələrdəki su kranlarının ətrafına toplaşır. Ukrayna prezidenti isə "Rusiya Ukraynanın iradəsini qıra biləməyəcək raketlərə malik deyil", mesajını səsləndirib.

**Məlahət**

# Dəm qazından boğulan şəxs Azərbaycan Ordusunun hərbçisi deyil




**Bəzi kütləvi informasiya vasitələrində guya Azərbaycan Ordusunun hərbi qulluqçusu Yusifli Seymur Teymur oğlunun dəm qazından boğularaq vəfat etməsi barədə məlumat yayılıb.**

Müdafiə Nazirliyindən "Şərq"ə bildirilib ki, Müdafiə Nazirliyinin bazasında qeyd olunan ad və soyadda Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçu mövcud deyil.

Kütləvi informasiya vasitələri nümayəndələrini rəsmi təsdiqini tapmayan məlumatları paylaşmamağa çağırır.

# İki akademik AMEA Rəyasət Heyətinin üzvlüyündən azad olunub



**Akademiklər Adil Qəribov və Fikrət Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin üzvlüyündən azad olunublar.**

Bu barədə qərar çərşənbə axşamı AMEA-nın Rəyasət Heyətinin iclasında qəbul olunub.

İclasda akademiklər Adil Qəribov və Fikrət Əliyevin bu vaxta qədərki səmərəli fəaliyyəti qeyd edilməklə Rəyasət Heyətinin üzvlüyündən azad olunmaları məsələsi həll edilib.

Hər iki tanınmış alim AMEA-nın Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif olunub.

*Xatırladaq ki, Milli Elmlər Akademiyasının 67 həqiqi üzvü və 101 müxbir üzvü var.*

# Uşaqların dilənçiliyə məcbur edilməsi dəhşətdir

## O insanlarda vicdan və mənəviyyat yoxdur



**Bakıda azyaşlıları dilənçiliyə məcbur edən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, Bakı Şəhər Baş Polis İdarəsinin Yetkinlik Yaşına Çatmayanlarla Profilaktiki İşin Təşkili Bölməsi, Bakı Metropolitenində Polis Şöbəsinin əməkdaşları ilə birgə keçirilən tədbirlərlə Bakı metrostansiyalarında dörd azyaşlını dilənçiliyə sövq edən 1984-cü il təvəllüdlü R.Məmmədova saxlanılıb.**

O, qohumlarının övladlarını dilənçiliyə sövq etdiyinə görə barəsində İnzibati Xətalar Məcəlləsinin 523.2-ci maddəsi ilə inzibati xəta haqqında protokol tərtib olunaraq toplanmış materiallara baxılması üçün Nizami rayon məhkəməsinə göndərilib. Məhkəmənin qərarı ilə R.Məmmədova 10 gün müddətində inzibati həbslə tənbeh edilib.

Azyaşlıların valideynləri Polis Şöbəsinə dəvət olunaraq profilaktiki söhbətlər aparıldıqdan sonra övladları onlara təhvil verilib.

**Sosioloq Lalə Mehralının sözlərinə görə, uşaqların dilənçiliyə məcbur edilməsi uşaqların hüquqlarının pozulması deməkdir. Bu da valideynin məsuliyyətsizliyindən irəli gəlir:** "Bu gün valideynlərin böyük əksəriyyəti uşaq hüquqlarına hörmətlə yanaşmır. Əməyi istismar olunan, küçələrdə dilənçilik edən uşaqların əksəriyyətinin arxasından valideyn faktoru çıxır. Bəzi valideynlər belə düşünür ki, uşaq işləməli, evə gəlir gətirməlidir. Təbii ki, sosial ehtiyacı olan ailələr var ki, belə ailələrdə uşaqların çalışması az da olsa başadüşüləndir. Amma bir çox ailələr var ki, valideynlər evdədir, çalışmır, amma uşaqları ya dilənçiliyə, ya da əməyə məcbur edirlər. Küçədə dilənən, səfil həyat sürən uşaqları çox vaxt bu işə valideynləri və ya "himayədarları" məcbur edir. Bu isə uşağa qarşı cinayətdir. Əlbəttə, buna qarşı hüquq-mühafizə orqanları tərəfindən ciddi tədbirlər aparılmalıdır. Uşağın hər hansı bir şəkildə əməyinin, özünün istismarı qəbuledilməzdir. Bu, konvesiyalara da, bizim milli qanunvericiliyimiz və mənəviyyat qanunlarımıza da ziddir.

> "Əməyi istismar olunan, küçələrdə dilənçilik edən uşaqların əksəriyyətinin arxasından valideyn faktoru çıxır"

Bu qadın 4 azyaşlını valideynlərindən xəbərsiz necə dilənçiliyə sövq edib? Bu, mümkünsüz bir şeydir. Çox güman o uşaqların diləndirilməsində valideynlər özləri də maraqlı olub və əldə olunan gəlirdən onlara da pay düşürmüş. Hesab edirəm ki, həmin şəxslə birlikdə valideynləri də həbs etmək lazım idi. Amma bu cür cinayət qarşılığında 10 gün çox azdır.

Belə çıxır ki, 10 gündən sonra azadlığa buraxılacaq ki, istədiyin qədər uşağı dilənçiliyə sövq edə bilərsən. Bu insanlarda vicdan və mənəviyyat yoxdur ki, islah olunsunlar".

**Şəymən Bayramova**

# 4 nəfər ölüb

## Son sutkada 60 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 60 yeni yoluxma faktı qeydə alınıb, 82 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 4 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 823 318 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 813 068 nəfər müalicə olunaraq sağalıb, hazırda 302 aktiv xəstə var. Bu günə qədər 9 948 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 956, bu günə qədər isə ümumilikdə 7 323 276 test icra olunub.*

# Şəkidə tövləyə girən canavar 44 baş qoyunu parçalayıb



**Şəki rayonunun Sarıca kəndində tövləyə girən canavar 44 baş qoyunu parçalayıb.**

"Report"un Şimal-qərb bürosunun məlumatına görə, vəhşi heyvan kənd sakini Zakir Əliyevin həyətyanı sahəsinə soxulub.

Canavar tövlədə olan 44 baş qoyunu parçalayıb. Nəticədə qoyunların hamısı tələf olub.

# Onların haqqı ödənməlidir

## Qaziləri ən çox narahat edən bir məsələ var

**"Sosial sahədə qanunların qəbulu zamanı qazilərlə bağlı məsələ mütləq nəzərə alınmalıdır". Bunu Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu "Parlament-QHT əməkdaşlığının gücləndirilməsi" mövzusunda keçirilən ictimai dinləmədə çıxışı zamanı deyib. N.Cəfəroğlu qeyd edib ki, QHT-lər bir sıra qanun layihələrinin qəbulu zamanı müzakirələrə çağırılmalıdır:**

"Bu gün bir çox qazi şikayət edir. Halbuki onlar bizim namusumuzu, qeyrətimizi geri qaytarıblar. Bu gün biz başıuca, alnıaçıq şəkildə sözümüzü deyə biliriksə, məhz onların hesabınadır. Məsələn, Polşada oxuyan bir gənc ailəsindən xəbərsiz Azərbaycana gələrək müharibədə iştirak etmişdi, 4 medal da almışdı. Bədənində çoxlu qəlpə yarası da qalmışdı. Müharibə yekunlaşandan sonra bizim xahişimizlə ali təhsil müəssisəsinin 5-ci kursunu yüksək balla bitirdi. Lakin onun əlillik təyinatı ilə bağlı məsələ həll olunmadı. Həkimlər bizə bədənində qəlpə olanlara əlillik verilmədiyini bildirdilər. Halbuki, onun sağ əli işləmir. Ona görə də qanunvericilikdə qazilərlə bağlı bəzi müddəaların dəyişməsini təklif edirəm. Həmin qazilərə nəyin bahasına olursa-olsun dəstək olmaq lazımdır. Dövlət başçısı xalqın yanında olduğu kimi, qanunlar qəbul edilərkən əhalini də nəzərə alın".

**Qarabağ Qaziləri İctimai Birliyinin sədri Asəf Əliyev "Şərq"ə açıqlamasında Novella xanımın qaziləri narahat edən problemə toxunduğunu bildirdi:**

- Müharibə iştirakçılarını, qaziləri ən çox narahat edən də elə bu məsələdir; qəlpə, güllə yarasının, kantuziyanın əlilliyin təyininə daxil edilməməsi. Bu yaraların ağrısını, əziyyətini ancaq müharibədə iştirak etmiş insan bilir. Müharibənin yaraları təkcə amputasiya ilə ölçülməməlidir. Kantuziya, kəllə-beyin travması var, dəlib keçmiş güllə yarası var... Güllənin insanı dəlib keçməsi o deməkdir ki, güllə adamı 5-6 metrə qaldırıb yerə çırpıb. Belə vəziyyətdə daxili orqanlarda hər cür travma yarana bilər. Minaya düşənlər, mərmi partlayışından xəsarət, zədə alan döyüşçü həm də kantuziya almış olur. Güclü partlayışdan nəinki beyin, bütün orqanlar silkələnir. Yaxınlığında mərmi partlamış döyüşçü uzun müddət o partlayışın təsiri altında qalır. Kantuziya elə bir şeydir ki, onun müalicəsi ümumiyyətlə yoxdur. Kantuziyalı adam ömrünün sonuna kimi müalicə almalıdır. Amma bizdə deyirlər, 6 aylıq müalicədən sonra guya ki, adam sağalır. Müharibə belədir; qaziliklə yanaşı, əsəb, stress, gerginlik bu insanları həm də "əsəbi insanlar" kateqoriyasına daxil edir. Müharibə yaralarının nəzərə alınmaması da qaziləri ikiqat sıxır, stresi artırır. Müharibə iştirakçısının bir əli işləmirsə ona niyə əlillik dərəcəsi təyin edilməməlidir? Belə məsələlər qazilərin haqlı narazılığına səbəb olur.



> "O da qəlpə, güllə yarasının, kantuziyanın əlilliyin təyininə daxil edilməməsidir"

**A.Əliyev qeyd etdi ki, əlilliyin qiymətləndirilməsiylə bağlı mövcud qaydalara bir müddət əvvəl edilən dəyişiklik əlillik dərəcəsi ləğv edilmiş və ya əlillik dərəcəsi hələ təyin edilməmiş qazilərdə təqaüd alacaqlarına ümidi artırıb. Lakin görünən budur ki, problemlər hələ də həlli ni tapmır:**

- "Əlilliyin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi və "Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 36 nömrəli Qərarına edilən dəyişikliyə əsasən orqanizmin funksiyalarının 30 faizədək pozulması hallarında əlillik müəyyən edilmir, 30 faizdən artıq pozulması hallarında isə 31-60 faizədək, 61-80 faizədək və 81-100 faizədək qiymətləndirilməklə əlillik müəyyən edilir. Orqanizmin funksiyalarının pozulmasının faiz göstəriciləri 31-35-dək olduqda 35 faiz müəyyən edilir. Orqanizmin funksiyalarının pozulmasının faiz göstəriciləri üzrə qiymətləndirilməsi 5 faiz aralığı ilə aparılır. Hər hansı bir hal üzrə müddətsiz əlillik müəyyən edilməsinə əsas olduqda, əlillik müddətsiz müəyyən edilir. Bu Qərar 2022-ci il iyulun 1-dən qüvvəyə minib. Göründüyü kimi, əlilliyin təyini üçün orqanizm funksiyalarının 30 faizdən artıq pozulması halı mövcud olmalıdır. Hesab edirik ki, bu faiz göstəricisi aşağı olmalıdır. Məsələn, Almaniyada əlilliyin təyini 20 faizdən başlayır. Yəni az, nisbətən yüngül xəsarət almış şəxslərə də əlillik faizi təyin edilir. Hətta kompensasiya da ödənilir. Türkiyədə də hərbi əməliyyatlar zamanı yüngül xəsarət alanlara əlillik faizi təyin edilir. Bizdə də bu qayda tətbiq edilsə, əlbəttə, daha yaxşı olar, Vətən uğrunda döyüşərək müxtəlif xəsarətlər alanlara müəyyən məbləğdə təqaüd təyin edilməlidir. Bu insanlar Vətən uğrunda döyüşüb, yaralanıblar. Müxtəlif xəsarətlər alıblar. Onların haqqı ödənməlidir.

**Məlahət Rzayeva**

# "Çox sağ ol" azdır, para lazımdır

## QHT ekspertləri televiziyalardan qonorar istəyirlər

**Azərbaycanda televiziya verilişlərində iştirak edən QHT ekspertlərinə qonorar verilməsi təklif olunur. Bu təkliflə Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynli Milli Məclisdə "Parlament-QHT əməkdaşlığının gücləndirilməsi" mövzusunda keçirilən ictimai dinləmədə çıxış edib.**

O deyib ki, televiziyalarda ekspertlər üçün qonorar fondu yaradılmalıdır.

"Həmin fondun maliyyəsi hesabına verilişə dəvət olunan QHT ekspertərinə əməyinə görə qonorar verilməlidir. Çünki biz saatlarla çıxış edib fikirlərimizi bildiririk".

**AVCİYA-nın vitse-prezidenti, professor Məhərrəm Zülfüqarlı "Şərq"ə açıqlamasında QHT sədrinin təklifini müsbət dəyərləndirib. O deyib ki, ekspertlərin rəy verdikləri məsələlərdə heç bir maraqları olmur, onlar mütəxəssis mövqeyindən çıxış edirlər:** "Necə ki digər sahənin insanları vaxtını və enerjisini sərf etdiyi xidmət üçün ödəniş alır, o cümlədən də QHT ekspertlərinin əməyi dəyərləndirilməlidir. Belə çıxır ki, bizim gördüyümüz iş dəyərsizdir?!

O, həmin məhsulu hazırlayana qədər xeyli informasiya ilə tanış olub, onları analiz edib və öz fikirlərini izləyicilərlə bölüşüb. Çox təəssüf ki, hazırda ölkəmizdə beyin məhsulu qiymətləndirilmir. Əksinə, bizim televiziyalar hesab edirlər ki, tribuna veriblər deyə ekspertlər onlara minnətdar olmalıdır. Halbuki biz kapitalizm dövrünü yaşayırıq. Bu səbəbdən də mütəxəssislər fikirlərinə, proqnozlarına görə qonorar almalıdır. Bir tarixçi olaraq mənə sual verirlər, izah edirəm, faktları göstərirəm. Qarşılığında isə sadəcə "çox sağ ol" alıram. Halbuki, paylaşdığım informasiyaları əldə edənə qədər mənim də vaxtım və enerjim gedib.







İlqar bəyin təklifini dəstəkləyirəm. Televiziyaların ekspertlərə qarşı münasibəti dəyişməli və efirə çağırdığı hər bir ekspertə saatına uyğun ödəniş etməlidir. Bunun üçün də televiziyaların reklam bazarı genişləndirilməlidir. Dövlətin maliyyə yardımı ilə fəaliyyət göstərən TV-lər ekspertlərə qonorar ödəmək iqtidarında deyil.

Ekspertin ictimai rəydəki nüfuzu nəzərə alınmalıdır. Elə insanlar var ki, çıxıb efirdə danışanda çalışdığı müəssisəni hörmətdən salmaqdan başqa bir işə yaramır. Milli Məclis yeni tərkibdə formalaşdıqdan sonra bu simalara daha tez-tez rast gəlirəm".

**Media eksperti Azər Həsrət də hesab edir ki, televiziyalara dəvət edilən ekspertlərin həm saatlarla vaxtı gedir, həm də efir boyu öz intellektual məhsullarını təqdim edirlər.** Bir növ televiziyalar öz tamaşaçı auditoriyasını genişləndirmək üçün bu şəxslərin zəkasından və beyin məhsulundan istifadə edir. Bunun qarşılığında da müəyyən məbləğdə ödəniş etməlidir: "Dünyada belə bir praktika var ki, xüsusi institutlaşmış ekspert qruplarına çıxışlar və sorğulara görə qonorar ödənilir. Bu hal bir ənənə halını alıb və efirə çağırılan hər bir ekspert üçün vəsait ödənir. Bu mənada İlqar Hüseynlinin təklifini məqsədəuyğun hesab edirəm. Amma Azərbaycan reallığında bu məsələ bir o qədər də real görünmür. Hazırda bildiyim qədəri ilə Azərbaycanda fəaliyyət göstərən televiziya kanallarının heç biri ekspertlərə qonorar ödəmir. Əslində bizdə qonorar ödəməyə dəyər ekspertlərin sayı da çox deyil. Hər QHT nümayəndəsinə də pul verib efirə çıxarmaq düzgün deyil.

Qonorar məsələsindən əvvəl bu sahədə ciddi araşdırma aparılmalı və bu sektorda olan peşəkar ekspertlərə telekanallar qonorar ödəməlidir. Bu gün hər əlinə mikrofon alan ekspert çıxıb efirdən insanlara ağıl verirsə, təbii ki, televiziyalar peşəkar ekspertlərə qonorar ödəyib onları efirə çağırmaqda maraqlı olmayacaq. Yəni ekspertin qonorar istəməsindən daha vacib məsələ ekspert adlandırılan şəxsin kimliyidir. Ekspert olmaq o deməkdir ki, sən həmin sahəyə əmək sərf edirsən, ilboyu monitorinq aparırsan, aid olduğun sahə üzrə məsələləri təhlil edirsən, proqnozlar verirsən və sair. Əgər ekspertin verdiyi proqnozlar özünü doğruldursa, bir sözlə, o peşəkardırsa, niyə də qonorar verilməsin!?".

**Şəymən Bayramova**



## İcbari avtosığorta üzrə ödənişlər yeni qayda ilə veriləcək

**Bu gündən etibarən avtomobillərə dəyən ziyan, zərərlərin birbaşa tənzimlənməsi qaydası ilə həyata keçiriləcək.**

"APA-Economics" xəbər verir ki, Azərbaycan Mərkəzi Bankının İdarə Heyəti tərəfindən qəbul edilən "Yol-nəqliyyat hadisəsində zərərçəkənin idarə etdiyi avtonəqliyyat vasitəsinə dəyən zərərin ödənilməsi ilə bağlı sığortaçılar arasında qarşılıqlı ödəmələrin tənzimlənməsinə dair Qayda" artıq qüvvəyə minib.

İcbari Tibbi Sığorta Fondu büdcədənkənar fonda çevriləcək, 1 milyarddan çox vəsait ayrılacaq

Dövlət Neft Fondu və Mərkəzi Bank media nümayəndələri üçün birgə təlim keçirib

Məlumata görə, hadisə baş verən zaman sığortalı şəxs, ona zərər vuran şəxsin sığorta şirkətinə deyil, öz sığorta şirkətinə müraciət edərək sığorta ödənişi tələb edəcək.

Mərkəzi Bankın açıqlamasında bildirilib ki, nəzərdə tutulan dəyişikliklər nəqliyyat vasitələri sürücülərinin sürücülük məsuliyyətinin artırılmasına və sığorta şirkətlərinin istehlakçılara daha yaxşı xidmət göstərmələrini motivasiya etməklə icbari avtosığorta (AVSMMİS) sahəsində mövcud problemlərin aradan qalxmasına, sığortaya ictimai inamın artmasına, bütövlükdə sığorta bazarının inkişafına xidmət edəcək.

*Qeyd edək ki, oktyabrın 1-dən qüvvəyə minən digər qayda ilə avtomobillərin icbari sığorta haqqının hesablanması qaydası dəyişib. Dəyişikliyə əsasən risk amilləri üzrə əmsallar - sürücünün yaşı və sürücülük təcrübəsinə, nəqliyyat vasitəsini idarə etmək hüququ olan şəxslərin sayına, nəqliyyat vasitəsinin idarə edildiyi bölgənin yol-nəqliyyat intensivliyinə, nəqliyyat vasitəsinin istismar müddətinə görə də əmsallar müəyyən olunur.*

# Cəbhədə durğunluq hökm sürür

## Ukraynanın uğurları dalana dirənib

**Rusiya Prezidenti Vladimir Putin və ölkə rəhbərliyi hələ də Ukrayna barədə danışıqlara hazırdır. Bunu Rusiya Xarici işlər naziri Sergey Lavrov deyib. Onun sözlərinə görə, Rusiyanın, o cümlədən prezidentin danışıqlara hazırlığı dəyişməz olaraq qalır: "Gərginliyi azaltmaq üçün Qərbdəki tərəfdaşlarımızın təkliflərini dinləməyə hər zaman hazırıq".**

Qeyd edək ki, bir müddət əvvəl Ukrayna Prezidenti Volodimir Zelenski bir sıra şərtlərlə Rusiya ilə danışmağa hazır olduğunu söyləyib. Zelenski bildirib ki, ruslar danışıqlar aparmaq istəyirlərsə, Ukrayna ərazilərindən çıxmalıdır: "Onlar ərazimizi tərk etməli və 1991-ci ildə beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində torpaqlarımızı bizə qaytarmalıdırlar. Ondan sonra hansı formatda və kiminlə danışmağa hazır olduğumuzu deyəcəyik. Bu, ədalətlidir". Qeyd edək ki, Rusiya Donetsk, Luqansk, Zaporojye və Xerson vilayətlərinin birləşdirilməsilə bağlı referendum keçirdikdən sonra Ukrayna Prezidenti Volodimir Zelenski Rusiya rəhbəri Vladimir Putinlə danışmaqdan rəsmən imtina etmişdi. Ümumən, son həftələrdə Xerson ətrafında hərbi əməliyyatlar yenidən şiddətlənib. Bəzi şərhçilərə görə, savaşın yeni mərhələsinin başlanması liderlərin dialoqunu mümkünsüz edir.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, Rusiya-Ukrayna müharibəsində Kiyevin sentyabrda qazandığı ərazi nailiyyətləri dalana dirənib. Analitik vurğulayıb ki, Rusiyanın Ukrayna ərazilərini ilhaq et-**



***Rusiyanı döyüş meydanında geri oturda biləcək hərbi tədbirlər NATO-nun gündəliyindədir***

**dikdən və nüvə şantajına keçdikdən sonra cəbhə xəritəsində durğunluq müşahidə edilir:** "Rusiyanın bəzi nöqtələrdə isə hücumlar həyata keçirərək yeni ərazilər tutduğu haqqında məlumatlar var. Nüvə təhdidləri elə Rusiyanın özünü də qorxudur. Çünki Kreml atom silahına müraciət edəcəyi təqdirdə NATO-nun buna hansı səviyyədə cavab verəcəyini müəyyən etməkdə çətinlik çəkir. Ümumilikdə Qərbin analitik təfəkküründə Rusiyanın özünün də nüvə atıb-atmayacağına dair müzakirələr dilemmalarla müşayiət edilməkdədir. Rusiyanı döyüş meydanında geri oturda biləcək hərbi tədbirlər isə NATO-nun gündəliyindədir və etiraf etmək lazımdır ki, Alyans bəzi addımlardan çəkinir".

A.Kərimova görə, NATO-nun etməli olduğu hərəkətləri belə təsnifatlandırmaq olar: "Ukraynaya F-16 döyüş təyyarələrinin və ən müasir döyüş tanklarının verilməsinə dair gizli məhdudiyyətlər aradan qaldırıla bilər. NATO Ukraynaya uzaqmənzilli raketlər verərək onların Rusiya ərazisinə atılmasını təmin edə bilər. Həmçinin, NATO qoşunları Ukraynadakı Rusiya qüvvələrinə hücum edər. Hərbi Alyansın qırıcıları Rusiyanın Qara dəniz donanmasına hücumlar həyata keçirə bilər. İndiki mərhələdə isə bunlar real görünmür. Lakin Rusiyanın eskalasiyanı genişlətmək cəhdlərinin gedişatları bəzi hərbi tədbirləri aktuallaşdıracaq".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Ekologiya və ətraf mühitin mühafizəsi



# Meşə yanğını ekologiyaya vurulan ağır zərbədir

## Hər bir vətəndaş təbiəti mühafizə etməyə borcludur

**İDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən ”Yanğından yaşıllığa” kampaniyası çərçivəsində ölkə ərazisinin yanğına məruz qalmış meşə fondu torpaqlarında meşəbərpa tədbirlərinə başlanılıb. Birliyin məlumatında qeyd olunur ki, payız ağac əkini mövsümündə Şabran, Siyəzən, Quba, Xaçmaz, Qəbələ, Oğuz, Zaqatala rayonlarının yanğına məruz qalmış meşə fondu ərazilərində meşəbərpa tədbirlərinin həyata keçirilməsi məqsədilə hazırlanan xüsusi proqram çərçivəsində yanğınlardan zərər görmüş sahələr təmizlənərək əkinə hazır vəziyyətə gətirilir.**

Kampaniyanın ilk günü Şabran rayonunun yanğına məruz qalmış meşə fondu sahəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmilərinin, Şabran Regional Meşə Təsərrüfatı Mərkəzinin əməkdaşlarının, IDEA İctimai Birliyi və ETSN könüllülərinin iştirakı ilə 2 hektar ərazidə 2000 ağac tingi əkilib və 200 kiloqram palıd toxumu səpilib. IDEA İctimai Birliyi və ETSN-in birgə təşkilatçılığı ilə həyata keçirilən kampaniya zamanı meşə fondu torpaqlarının yanğına məruz qalmış ərazilərində hər bölgənin torpaq-iqlim şəraitinə uyğun, meşə təsərrüfatlarının tinglik sahələrində yetişdirilmiş palıd, fıstıq, vələs, ağcaqayın, qarağac, çinar, cökə, göyrüş, akasiya kimi müxtəlif cinsli ağacların əkilməsi, toxumların səpilməsi nəzərdə tutulub. Təəssüf ki, yay mövsümündə isti və quraq hava şəraiti, əsasən də insan faktoru, ehtiyatsız davranışlar nəticəsində ölkənin müxtəlif bölgələrində meşə yanğınları baş verib və hektarlarla meşə fondu sahəsi yanğından zərər görüb. Son illər iqlim dəyişməsi fonunda qlobal istiləşmə səbəbindən planetdə meşə yanğınları artır, ilbəil miqyası genişlənir. Bu şəraitdə insanların odla ehtiyatsız davranışı, yaşıllıqlara olan etinasızlığı daha çox ərazilərin yanğına məruz qalmasına, daha böyük fəsadların, o cümlədən ağacların məhvinə, ətraf mühitin və biomüxtəlifliyin, kənd təsərrüfatı sahələrinin ciddi zərər görməsinə səbəb olur. Bu səbəbdən torpaq sahibləri, fermerlər, turistlər və bütün vətəndaşlar yanğın təhlükəsizliyi qaydalarına əməl etməli, yanğınlara şərait yaradan hallara yol verməməlidir. Meşə ilə örtülü sahələr Azərbaycan ərazisinin 11,8 faizini təşkil edir. Meşələr bizi təmiz hava və sağlam məkanlarla təmin edir. Onlar suyu təmizləyir, torpaqlarımızı eroziya, daşqın və digər təhlükələrdən qoruyur, yerli və qlobal iqlim şəraitini tənzimləyir, planetimizin flora və faunasının 80 faizinə ev sahibliyi edir, yanacaq istifadəsindən əmələ gələn karbon qazının 1/3-ni udmaqla, iqlim dəyişikliyi ilə mübarizədə bizə kömək edir. Meşə ehtiyatları ölkəmizin, xüsusən regionların iqtisadi inkişafına və ümumiyyətlə, insanların dolanışığına böyük töhfə verir. Bütün bunları nəzərə alaraq, meşələrin bərpası və genişləndirilməsi üzrə həyata keçirilən tədbirlər bir çox Dayanıqlı İnkişaf Məqsədlərinə, xüsusən də Məqsəd 3 (Səhiyyə və rifah), Məqsəd 13 (İqlim dəyişikliyi), Məqsəd 15 (Torpaq ekosisteminin mühafizəsi) və digər məqsədlərə nail olunmasına xidmət edir.



”Yanğından yaşıllığa” kampaniyasının təşkilatçıları vətəndaşları əvəzedilməz həyat mənbəyi olan meşələrimizi qorumağa, ölkəmizin və planetimizin dayanıqlı gələcəyini təmin etməyə dəstək olmağa çağırır.

**Başladılan kampaniya ilə bağlı fikirlərini ”Şərq”lə bölüşən Bələdiyyələrin Fəaliyyətinin Təbliği İctimai Birliyinin sədri Vüqar Tofiqli qeyd etdi ki, hər bir vətəndaş, daha böyük masştabda götürüldükdə isə planetimizin sakini olan hər bir insan təbiəti mühafizə etməyə borcludur. Çünki bəşər övladı təbiətin bir parçasıdır. Təbiəti məhv etməklə insan özünün məhvini yaxınlaşdırır:**

- Çox sevindiricidir ki, son zamanlar təbiətin mühafizəsi, ekologiyanın qorunması, dirçəldilməsi istiqamətində görülən əməli işlərlə yanaşı, geniş maarifləndirmə işləri də aparılır. Metropoliten daxilində - stansiyalarında, vestibüllərdə ekologiyanın mühafizəsinə çağırış edən təbliğat lövhələri vurulub. Lövhənin birində qeyd edilir ki, ”24 saat içində bir ağac orta hesabla üç nəfərin tənəffüsü üçün lazım olan oksigen sintez edir”, 1 ağac 3 nəfərlik ailənin illik tənəffüsünü təmin etməyə qadirdir. Mən inanıram ki, bu lövhəni görən, ona diqqət edən sərnişinlərdə ağacların qorunmasına həvəs yaranır və insanlar anlayır ki, yaşıllıqları qorumaq lazımdır, ağacları kəsmək olmaz, belə bir hadisənin baş verdiyini bildikdə, dərhal əlaqədar qurumlara xəbər vermək, ağac qırğınını dayandırmağa çalışmaq lazımdır. Yay mövsümü boyunca müxtəlif bölgələrdə meşə massivlərindəki yanğınlar barədə məlumatlar verilirdi. Meşə yanğını ekologiyaya vurulan ağır zərbədir. Meşələrin bəşəriyyətdə necə önəm daşıdığını bilmək üçün bir-iki fakt yetərlidir. Məsələn, günəşli bir gündə bir hektar meşə sahəsi havadan 220-280 kiloqram karbon qazı udur və 180-200 kiloqram oksigen buraxır. Bir hektar iynəyarpaqlı ağac ildə 40 tona qədər, yarpaqlı ağaclar isə təxminən 100 tona qədər toz tutur. 1 hektar meşə 200 nəfərin nəfəs almasını təmin edir. Faktları artırmaq da olar, amma elə bu bir-iki kəlmə də yaşıllıqların, meşə massivlərinin necə önəmli olduğunu təsdiq etməyə yetir.

**V.Tofiqli təbiətin bərpası prosesində yerli bələdiyyələrin də iştirakının vacib olduğunu bildirdi:**

- Dövlət Ekoloji Ekspertiza Agentliyində Xəzər rayon icra hakimiyyəti rəsmilərinin, bələdiyyə nümayəndələrinin, həmçinin media təmsilçilərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib. Tədbirin məqsədi yerli icra hakimiyyəti orqanları və bələdiyyələrin yaşıllıqların monitorinqi, mühafizəsi və onların götürülməsi üçün mövcud prosedurların izahı, həmin qurumların bu sahədə üzərinə düşən öhdəliklərinin müzakirəsi olub. Görüşdə yaşıllıqların götürülməsinə dair ekoloji rəyin alınması sahəsində şəffaflığın təmin edilməsi, bələdiyyələr və icra hakimiyyəti orqanlarına yaşıllığın götürülməsi üçün verilmiş rəylərin icra vəziyyətinin müzakirəsi, dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlığın qurulması, yaşıllıqların mülkiyyətçilərinin üzərinə düşən vəzifə və öhdəliklər müzakirə olunub. Bu, onu göstərir ki, yerli bələdiyyələr təbiətin bərpasında əhəmiyyətli iş görə bilər və harda ki, bu işlər birgə əməkdaşlıq çərçivəsində aparılır, orada müsbət nəticələrə nail olunur. Ekologiyanın bərpası dedikdə təkcə yaşıllıqların, meşə massivlərinin bərpası üzərində dayanılmamalıdır. Ətraf mühitin təmizliyi də ekoloji sağlamlıq üçün böyük əhəmiyyət kəsb edir. Bizə daxil olan məlumatlara görə, hazırda ölkəmizin müxtəlif bölgələrində payız-qış mövsümünə hazırlıq tədbirləri çərçivəsində abadlıq və təmizlik işləri də aparılır. Bu cür tədbirlər İsmayıllıda, Gədəbəy rayonunda keçirilib. Məsələn, Gədəbəydə bələdiyyələrin köməkliyi ilə şəhərin Şır-şır adlanan ərazisində təmizlik və abadlıq işləri aparılıb. Bələdiyyə qulluqçularının və könüllülərinin iştirakıyla keçirilən iməciliкdə ətraf ərazi zibil tullantılarından təmizlənib. Bələdiyyənin qərarıyla yaxın gələcəkdə həmin ərazidə əhalinin mədəni istirahəti üçün şərait yaradılması nəzərdə tutulur. Belə işlər ətraf mühitin mühafizəsi üçün çox önəmlidir.

**V.Tofiqli qeyd etdi ki, ölkəmizə qarşı ekoloji terror 30 ilə yaxın müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərimizdə törədildi. Bu ekoloji terrora 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbəylə son qoyuldu. İndi isə yaraların sağaldılması zamanıdır:**

- Xatırladım ki, bir müddət əvvəl Bakıda keçirilən Azərbaycan Milli Şəhərsalma Forumunda çıxış edən Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev qeyd etmişdi ki, işğaldan azad edilmiş Zəngilan şəhəri ”ağıllı” və ”yaşıl” şəhər konsepsiyalarına uyğun bərpa edilən regional mərkəzdir. İşğal dövründə məhv edilmiş ekosistemin bərpası üçün Zəngilan rayonunda 20 min çinar ağacı və min kiloqram palıd toxumu əkilib. Bundan başqa, Ağalı kəndində 3 mindən çox müxtəlif ağac əkilib. Zəngilanda yaşayış rayonları park zonalarına inteqrasiya olunacaq. Bu o deməkdir ki, yaşayış binaları bir tərəfdən yerli materiallar istifadə olunmaqla, digər tərəfdən müasir texnologiyaların vasitəsilə yüksək standartlarla inşa edilərək park rayonunun planlama və dizaynına inteqrasiya olunacaq. Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərin baş planına uyğun olaraq ”ağıllı” şəhərlər və kəndlər, ”yaşıl” iqtisadiyyat və dayanıqlı inkişaf kimi konsepsiyalar reallaşdırır. İşğaldan azad edilmiş ərazilərdə ekoloji tarazlığın bərpası, ərazilərin, şəhərlərin yaşıllaşdırılması əsas prioritetlərdəndir. Hesab edirəm ki, qısa zamanda müsbət nəticənin əldə olunması üçün bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi də vacibdir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Tərəflərin ən rahat razılığa gəldikləri boşanmadır

## Əmlak bölgüsündə tərəflər ortaq övladların maraqlarından çıxış etmir



**"Ailə mübahisələrində mediasiyanın ciddi töhfəsini görə bilirik. İşlərin yarısında təbii ki, irəliləyişə nail olmaq çətin olur, amma boşanma işlərin yarısında tərəflərin bütün tələbləri olmasa da, bəzi tələbləri arasında razılıq əldə etmək olur".**

Bu sözləri hüquqşünas, Mediasiya Şurasının üzvü Fərhad Mehdiyev deyib.

Mediatorun sözlərinə görə, ən rahat razılığa gəlinən məsələlər boşanmaya razılıq, uşaqla ünsiyyət, cehiz məsələləridir; orta çətinliklə olan aliment məbləği, daha çətin olanlar isə əmlak bölgüsü məsələləridir:

"9 saylı təşkilatda baxılan ailə mübahisələrində ciddi sayda qismən razılaşmalar əldə edə bilirik. Daha çox razılaşmalar əldə etmək mümkündür, amma tərəflər arasında uçurum o qədər dərin olur ki, onlar uzlaşmaya getmirlər.

Təəssüf ki, əmlak bölgüsündə tərəflər ortaq övladların maraqlarından çıxış etmir; belə ki, evin satılması məsələsi olanda ev adətən bazar qiymətindən ucuza satılır, tərəflər pulu xərcləyir (yaxşı ehtimal ipotekaya ev alırlar) və uşağın maraqlarını pozurlar. Halbuki, əmlak bölgüsü məsələsində alimentin müəyyən məbləği qarşılığında evdən kişinin imtina etməsi (ağlabatan nisbətdə), uşaqların maraqları üçün daha uyğun addım kimi götürülə bilər. Başqa həll yolları da - məsələn, əmlakın uşağın adına keçirilməsi kimi - təbii ki, mümkündür".

*Qeyd edək ki, Avropa ölkələrinin əksəriyyətində ailə quranlara nikahı təsdiqləyən sənədlə bərabər, nikah müqaviləsi verilir. Nikah müqaviləsi ər-arvad arasında gələcək həyatlarında zəruri bildikləri müəyyən məsələlər barədə əldə olunan razılaşmanın notariusda təsdiq etdirilməklə rəsmiləşdirilməsidir.*

**Şəymən**



## Əməliyyatı üçün 100 min manat qalıb

Rusiyada yaşayan bir bəy Könül Xasıyevaya 20 min manat bağışlayıb

**Xəbər verdiyimiz kimi, Xalq artisti Könül Xasıyevanın boğazında şiş aşkarlanıb.**

Axşam.az xəbər verir ki, xanəndə müalicəsi üçün 254 min manat lazım olduğunu açıqlayıb. Bunun üçün Xasıyeva sənət adamlarına müraciət ünvanlayıb.

Xanəndə bu günlərdə ona 50 min manat yardım edildiyini açıqlayıb. Muğam ifaçısı bildirib ki, ümumilikdə, 150 min toplaya bilib. "İnanıram ki, yenə də ən yaxın dostlarımın dəstəyi sayəsində bu səsimə qovuşacağam. Bir xanım 30 min manat, Rusiyada yaşayan bir bəy isə 20 min manat bağışladı" deyə, K.Xasıyeva açıqlayıb.

İfaçı əlavə edib ki, əməliyyatı üçün 100 min manat qalıb.

*Qeyd edək ki, K.Xasıyeva bir xanım rəfiqəsinin ona 100 min bağışladığını demişdi. O, eyni zamanda Əməkdar artist Yusif Mustafayevin 1000 dollar göndərdiyini açıqlayıb. Xatırladaq ki, muğam ifaçısının müalicəsi Almaniyada olacaq.*



## Gəmi nəqliyyatı, dəmiryolu, velosiped və skuterlər...

Paytaxtda tıxacdan qurtulmağın yolları göstərildi

**Hər gün minlərlə insan Bakının mərkəzində və şəhərin istənilən yerində, tıxacda saatlarla vaxt keçirir.**

Bu tıxacların qarşısını almaq üçün nələr etmək lazımdır?

Məsələ ilə bağlı Trend-ə açıqlama verən nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyev bildirib ki, çıxış yolu ayrılmış avtobus zolaqları və çeşidli ictimai nəqliyyat növlərinin inkişafıdır.

O bildirib ki, son günlər tıxacların qarşısının alınması məqsədilə Bakı ilə Sumqayıt arasında gəmi nəqliyyatının təşkili təklif edililir.

"Bakıda dəniz üzərində sərnişindaşımanı təklif edənlər bəzən detalları bilmədən belə fikirlər səsləndirirlər. Hava şəraitinə bağlı olan dəniz üzərindən sərnişindaşımalar dayanıqlı deyil, həmçinin, sürətin aşağı olması bu təklifi cəlbedicilikdən uzaq edir. Bakı ilə Sumqayıt arasında gəmi nəqliyyatının təşkili qeyri-mümkündür. Xəzər dənizində küləyin istiqaməti tez-tez dəyişir. Hava şəraiti ilə əlaqədar reys təxirə salına da bilər. Ümumiyyətlə, tıxacların qarşısının alınması üçün bu variant rentabelli deyil". Ekspertin sözlərinə görə, tıxacların azaldılması üçün çeşidli nəqliyyat növlərinin inkişafı vacibdir. Alternativ ictimai nəqliyyat dedikdə yüngül reysli dəmiryolu sistemi, velosiped və skuterləri misal göstərmək olar.

Paytaxtın bəzi küçələri və prospektləri sərnişindaşıma baxımından həddindən artıq yüklənir və bunun qarışısını almaq üçün daha çox sərnişin daşıyan yüngül relsli dəmiryol sistemi yaradılmalıdır. Hazırda dəmiryolu şəbəkəsində də qatarların sayı çox azdır. Qatarların sayının artırılması əlavə stansiyaların qurulması daha yaxşı olardı. Velosiped və skuter zolaqlarının salınması da tıxacların qarşısının alınmasına təsir edəcək. Bunun üçün, ilk növbədə, daha çox sərnişin daşıyan ictimai nəqliyyat növü - avtobus üçün bütün şəhər boyu xüsusi avtobus zolağı yaradılmalıdır.

# Ötən ay dövlət sərhədini pozan 55 nəfər saxlanılıb

## Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir



**Dövlət Sərhəd Xidməti tərəfindən 2022-ci ilin sentyabr ayı ərzində dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qaçaqmalçılıq, qeyri-leqal miqrasiya, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilib.**

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən "Şərq"-ə verilən məlumata görə, ay ərzində dövlət sərhədini pozduqlarına görə 55 nəfər saxlanılmış, onların 34 nəfəri Azərbaycan Respublikası, 3 Nepal, 2 Tacikstan, 1 nəfər Fələstin və 1 nəfər Pakistan, 2 İran İslam Respublikası, 2 Pakistan, 5 Əfqan, 1 Suriya və 4 Şri-Lanka vətəndaşları olmuşlar.

Qanunsuz miqrasiya ilə mübarizə fəaliyyətləri çərçivəsində saxtalaşdırılmış pasport, Şengen vizaları və tarix möhürləri ilə 30 nəfər dövlət sərhədini keçməyə cəhd göstərərkən saxlanılmışlar. Sərhədboyu rejim qaydalarını pozduqlarına görə 25 nəfər və sərhəd rejim qaydalarını pozduqlarına görə isə 678 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülmüşdür.

Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan Respublikası hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 234 nəfər aşkarlanaraq aidiyyəti orqanlara təhvil verilmiş, ölkədən çıxışı qadağan olan 420 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olan 24 nəfərin Azərbaycan Respublikasına daxil olmasının qarşısı alınmışdır.

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində 39 kq 036 qram narkotik vasitə, 759 ədəd psixotrop həblər aşkarlanaraq götürülmüşdür.

Qaçaqmalçılıq fəaliyyətinə qarşı mübarizə çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində ümumi dəyəri təqribən 937 min 318 manat olan qaçaqmal, o cümlədən spirtli içki və tütün məmulatları saxlanılmışdır.

Dövlət sərhədlərimizin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir.



## 1 milyon dollar tələb edir

Klinton Trampı məhkəməyə verdi

**ABŞ prezidentliyinə keçmiş namizəd və keçmiş dövlət katibi Hillari Klinton ABŞ-ın keçmiş prezidenti Donald Tramp və vəkillərindən ona qarşı 2016-cı il seçkilərinin nəticələri ilə bağlı əsassız iddia qaldırdıqlarına görə 1,06 milyon dollar təzminat tələbi ilə bağlı ərizə verib. 2016 seçki.**

Lent.az bildirir ki, bu barədə "Bloomberg" Klintonun məhkəməyə müraciətinə istinadən xəbər verib.

Agentliyin məlumatına görə, siyasətçi bu məbləği onun, 2016-cı il prezidentlik kampaniyası və demokratlarla əlaqəli bir neçə digər müttəhimlərin Trampın onlara qarşı iddiası nəticəsində çəkdiyi məhkəmə xərcləri və məsrəfləri üçün kompensasiya kimi geri almağa çalışır.

Agentlik yazır ki, Trampın vəkillərindən Alina Xabba Klintonun ərizəsinin "təxribat xarakterli ittiham" olduğunu bildirib.

2022-ci ilin martında Tramp ABŞ-ın Florida dairəsi üzrə federal məhkəməsində Hillari Klinton və Demokratlar partiyasının liderlərinə qarşı iddia qaldırıb. O, siyasətçiləri 2016-cı il seçkilərinin nəticələrinə təsir etmək üçün "ağılları sarsıdan və millətin demokratik əsaslarına meydan oxuyan ağlasığmaz bir sui-qəsd" təşkil etməkdə ittiham edib.

# “Prius” kabusu

## “Taksi sürücüsünün normal istirahəti və iş rejimi olmalıdır”



**”Problem ”Prius” markalı avtomobilləri idarə edənlərdədir”.**

**Bu sözləri ”Şərq”ə nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı deyib. Onun sözlərinə görə, son vaxtlar ölkəmizə kütləvi şəkildə ”Toyota Prius” markalı avtomobillər gətirilir:** ”Buna səbəb həmin avtomobillərin hibrid tipli və ekonom olmasıdır. Üstünlükləri çoxdur. Bugünkü dövr üçün şəxsi avtomobil kimi istifadə edənlərin də sayı kifayət qədərdir. Amma ”Prius” taksi fəaliyyətinə daha çox cəlb olunur. Bunların da böyük əksəriyyəti köhnə maşınlardır. Başqa ölkələrdən gətirilir. Çünki ucuz - 12-14 min manat arasında başa gəlir. Bəzi insanlar var ki, evini-eşiyini satıb, ”Toyota Prius” alır. Taksi kimi xəttə buraxır. Maşını da özü sürmür, kiməsə verir. Həmin adamlar da problem yaradırlar. Narkotik vasitələrin təsiri altında olan, yuxusuz, yorğun insanlar sürücü kimi fəaliyyət göstərirlər.

***"Çünki onlar özlərindən başqa gündə onlarla insanın həyatına cavabdehdirlər"***

Onlar da ”Uber”, ”Bolt” kimi taksi şirkətlərinə qoşulurlar. Şirkətlər də gün ərzində 25 gediş tələbi qoyur, qarşılığında hədiyyə təqdim edirlər. Sürücü də sahibkarın tələbi ilə daha çox qazanc əldə etməyə məcbur olur. Bu gün sözügedən daşıyıcı şirkət sürücülərini sahibkarların əlindən xilas etməliyik.

Lakin təəssüf ki, hazırda dövlət bu işə ciddi maraq göstərmir. Bir neçə ildir ki, həmin adıçəkilən şirkətlər Azərbaycanda ”at oynadır”. Onlar qiymətləri ucuzlaşdıraraq, digər şirkətləri müflisləşdiriblər. Özləri də istədikləri qiymətlə bazarda monopoliya yaradırlar. Belə olmaz. Qarşısı mütləq alınmalıdır. Taksi fəaliyyəti ilə bağlı qaydalar təkmilləşdirilməlidir. Taksi sürücüsünün normal istirahəti və iş rejimi olmalıdır. Çünki onlar özlərindən başqa gündə onlarla insanın həyatına cavabdehdirlər”.

*Qeyd edək ki, sükan arxasında yuxulayan ”Prius” taksi sürücüsü qəza törədib. Nəticədə onun idarə etdiyi avtomobil qarşısında dayanan ”Mitsubishi Pajero” markalı maşına çırpılıb.*

**Sücayət Mehti**

# Fiber optik şəbəkə və infrastruktur lazımdır

## Ölkədəki telekommunikasiya operatorların infrastrukturu hələlik bu tələbata cavab vermir




**”Mobil operatorların 5G xidməti göstərməsi üçün yüksək ötürmə qabiliyyəti olan fiber optik şəbəkə və infrastruktur lazımdır. Ölkədəki telekommunikasiya operatorların infrastrukturu hələlik bu tələbata cavab vermir”. Bu sözləri ”Şərq”ə açıqlamasında Osman Gündüz deyib.**

”Delta Telecom”un ”NOKİA” şirkəti ilə birgə ölkədaxili və regional şəbəkəsini modenrləşdirdiyini vurğulayan ekspertin sözlərinə görə, Bakı şəhərindəki mövcud 100 Gbps-lik şəbəkə birdən-birə 400 Gbps-ə qaldırılır. Regionda da 400GE IP texnologiyasını dəstəkləyən platforma qurulur: ”Məlumata görə, tətbiq edilən ”Nokia” texnologiyası trafiki daha çevik və səmərəli idarə etməyə, 5G baza stansiyalarını daha effektiv əlaqələndirməyə, yeni yüksək sürətli IP xidmətlərini təmin etməyə, həmçinin kiber təhlükəsizlik təhdidlərinə qarşı da üstün qorunma təmin etməyə imkan verəcək.

*Xatırladım ki, ”Delta Telecom” tək Azəbaycan üçün deyil, İran, İraq, Tukmənistan, Özbəkistan, Əfqanıstan və sair ölkələrə də tranzit və internet xidmətləri göstərməkdədir”.*

**Şəymən**

# Sosial şəbəkələr arasında ciddi rəqabət gedir

## Yaranan problemlər əsasən yeni funksiyaların tətbiqi zamanı baş verir



**Milyardlarla istifadəçi olan platformanı idarə etməyin çətin bir proses olduğunu vurğulayan İKT eksperti Orxan Rzayevin sözlərinə görə, sosial şəbəkələrdə yaranan problemlər əsasən yeni funksiyaların tətbiqi zamanı baş verir:** ”Bütün sosial şəbəkələr arasında ciddi rəqabət var. Şirkətlər istifadəçini daim maraqda saxlamaq üçün bir çox funksiyalarında tez-tez yeniliklər edirlər. Bəzən bu funksiyalar üzərində edilən dəyişikliklər hansısa başqa modullarla, funksionallıqla konflikt yaradır ki, bu da texniki problemlərin yaranmasına gətirib çıxarır. İkincisi isə istifadəçi aktivliyindən yaranan ”tıxacdır”. Müəyyən zamanlarda sosial şəbəkə istifadəçiləri daha çox aktiv olur. Məsələn, gün ərzində ”Messenger”də ortalama 8-10 milyard mesaj yazılır. Bu zaman isə serverlərdə və ya hansısa parametrlərdə texniki problemlər yaranır. Diqqət yetirsəniz görərsiniz ki, bu, daha çox qlobal şəkildə baş verir. Bəzən isə bu problemlər regional xarakter də daşıyır. Yəni müəyyən ərazilərdə yerləşən serverlərdə yaranmış texniki nasazlıq bir neçə ölkələrdə və ya ölkədə istifadəçilərin sosial şəbəkəyə daxil olmalarına əngəl olur”.

**“Instagram” sosial şəbəkəsində problem yaranıb. İstifadəçilər uzun müddət öz profillərinə daxil ola bilməyib. Üstəlik, nasazlıq səbəbindən aktiv profillərdə məlumat paylaşmaq, axtarış etmək və ümumiyyətlə, şəbəkədən istifadə iflic hala düşüb.**

İnstaqram təmsilçiləri ”tvitter” hesabında paylaşım edərək mövcud problem haqqında xəbərdar olduqlarını təsdiqləyiblər. Məlumata əsasən sözügedən problem ilə daha çox ”iPhone” istifadəçiləri qarşılaşıblar. Belə ki, onlar fotoservisin qeyri-stabil şəkildə çalışdığını və ondan istifadənin qeyri-mümkünlüyünü müşahidə ediblər. Bəzi istifadəçilərdə abunəçilərin ümumi sayı minlərlə nəfər aşağı düşüb. Məşhur şəxslərin hesabları və ”Instagram”ın öz hesabı sutka ərzində bir neçə milyon abunəçi itirib. Qeyd etmək lazımdır ki, hələ bir neçə müddət bundan öncə müxtəlif regionlarda ”Instagram” və ”Facebook”un qeyri-stabil çalışması müşahidə edilmişdi.

**Şəymən**




# Hesablama Palatası Maliyyə Nazirliyinə irad bildirib

**”Əvvəlki rəylərimizdə də qeyd edildiyi kimi dövlət büdcəsi profisitlə icra edildiyi halda borclanmaya gedilib ki, ehtiyac olmadan cəlb edilmiş borc vəsaiti qalıq vəsaitə yönəldilərək istifadəsiz qalıb, nəticədə həmin vəsait əlavə faiz xərcləri yaradıb, eyni zamanda borc öhdəliklərinin yeni borclanma ilə ödənilməsi zamanı faiz dərəcələrinin artması ehtimalını şərtləndirib”.**

”APA-Economics” xəbər verir ki, bu barədə Hesablama Palatasının ”2023-cü il dövlət büdcəsi haqqında” qanuna verdiyi rəydə bildirilib.

Qeyd edək ki, daxili borclanma, yəni dövlət istiqrazlarının buraxılması yolu ilə vəsaitin cəlb edilməsilə Maliyyə Nazirliyi məşğul olur.

Xatırladaq ki, dövlət büdcəsinin 8 aylıq icra nəticələrinə əsasən gəlirlər 20184,7 mln. manat və ya 101,8%, xərclər isə 18151,9 mln. manat və ya 100,4% icra edilib, büdcə profisiti 2032,8 mln. manat təşkil edib. Kəsirin maliyyələşdirilməsi mənbələri üzrə 8 ay ərzində 576,0 mln. manat, o cümlədən daxili borclanma hesabına cəlb edilmiş 380,1 mln. manat vəsait büdcə qalığına yönəldilib.

# Qərar var, izah yoxdur!

## Sabit şəbəkə telefonlarından istifadənin abunə haqqı niyə qaldırılıb?



**Azərbaycanda sabit şəbəkə telefonlarından istifadəyə görə aylıq abunə haqqının əhali üçün 2,5 manatdan 3,5 manata (ƏDV daxil olmaqla) çatdırılıb, şəhərlərarası telefon danışıqları üzrə tarif isə 5 qəpikdən 3 qəpiyə endirilib.**

Müvafiq qərar Tarif Şurasının oktyabrın 26-da keçirilmiş növbəti iclasında qəbul edilib.

Məlumata görə, bununla bağlı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təklifləri qəbul edilib. Qurumun Şuraya müraciətində qeyd olunub ki, dünyada baş verən tendensiyalara uyğun olaraq, internet vasitəsi ilə əlaqələrin artması fonunda beynəlxalq giriş və çıxış telefon trafikinin həcmi ildən-ilə azalır.

Xidmətlərlə bağlı 2 dekabr 2013-cü il tarixində həyata keçirilmiş son tarif tənzimlənməsindən sonra trafik daha da azalıb ki, bu da müəssisələrin maliyyə fəaliyyətinə təsir edib. Bu baxımdan, keyfiyyətli rabitə xidmətlərinin göstərilməsi, əməkhaqlarının artırılması və xərclərin qarşılanması məqsədilə tariflərə yenidən baxılmasına zərurət yaranıb.

Sabit şəbəkə telefonlarından istifadəyə görə aylıq abunə haqqının qaldırılması barədə ”Şərq”ə danışan iqtisadçı-ekspert Rəşad Həsənov bildirib ki, normal hesabatlı, şəffaf qurumlar olsa, qiymət artımlarını izah etmək çətin olmaz: ”Uzun müddətdir, 2 manat 50 qəpiklik tarif tətbiq edilirdi. Xidmət xərcləri, avadanlıqların, yanacağın qiyməti artır. Hətta bu şirkət əməkdaşlarının əməkhaqqını da qaldırmalıdır. Müəyyən xərc yükü yaranır. Nəticə etibarilə, qiymət artımlarını şərtləndirir. Belə qurumların fəaliyyətinin şəffaf olmaması cəmiyyətdə narazılıqla qarşılanır.

Mobil operatorlar şəhərlərarası bazarda geniş paya malikdilər. Optimal paketlər təklif edirlər. Ucqar yerlərdə mobil operator xidmətlərindən istifadə mümkündür. Şəhərlərarası telefon danışığı tarifini aşağı salıb, sabit şəbəkə telefonlarından istifadənin aylıq abunə haqqını qaldırmaq görüntü xarakterlidir.

Yəni adekvat qiymət siyasəti yürütdüklərini bildirmək istəyirlər”.

**Aygün Tahir**

# UNEC-də Zəfər günü qeyd olundu



**8 Noyabr Zəfər günü münasibətilə UNEC Ümumi fənlərin tədrisinin təşkili departamentinin Tələbə Elmi Klubu tərəfindən 27 oktyabr tarixində "Qarabağ Azərbaycandır" adlı ədəbi-bədii tədbir keçirilib.**

Tədbiri giriş sözü ilə açan Departamentin direktoru dosent Gülnarə Rzayeva iştirakçılar ilə birlikdə qələbəmizdə əvəzsiz rolu olan şəhidlərimizin ruhunu bir dəqiqəlik sükutla yad edərək hər kəsi Zəfər günü münasibətilə təbrik etdi, Ali Baş Komandanımıza, ordumuza, qazilərimizə və xalqımıza can sağlığı arzuladı.

UNEC-in Biznes və Menecment fakültəsinin məzunu olmuş şəhidimizin - Rüfət Əsgərovun anası Aynurə xanım da tədbirdə iştirak edirdi. O, çıxış edərək şəhidlərimizi və onların ailələrini daim yad etdikləri üçün UNEC ailəsinə təşəkkürünü bildirdi.

Tədbirdə UNEC-in məzunu Yusif Cəfərbəylinin ifasında muğam və "Xudayar təsnifi" səsləndi, həmçinin UNEC tələbələrinin hazırladığı müharibədən tamaşa səhnələri, şeirlər, ifalar nümayiş etdirildi.







Tədbirin sonunda iştirak edən şəhid Rüfət Əsgərovun kiçik bacısı, UNEC-in gələcək tələbəsi Zəhra Əsgərova, Biznes və menecment fakültəsinin tələbələri Ellada Abdullayeva, Nuray Hacıyeva, Nurlan Vəliyev, Ziyad Ağayev, İqtisadiyyat və idarəetmə fakültəsinin tələbələri Səid Məmmədov, Məmməd Rəcəbli, Maliyyə və mühasibat fakültəsinin tələbələri, Fidan Şəfiyeva, İlkin Tağıyev, Rəvan Məmmədov, Nicat Məmmədov, Beynəlxalq İqtisadiyyat Məktəbinin tələbələri Arzu Rzayeva, Rişad Sarıyev və SABAH qrupunun tələbəsi Nəzirə Adıgözəlova sertifikatlarla təltif olundular.

Tədbirin təşkilatçılığına görə ÜFTT departamentinin direktoru dosent Gülnarə Rzayeva, TEK-un rəhbəri t.ü.f.d. b/m. Cəmilə Həsənova, HK-in sədri Gülnar Dadaşzadə, dos. Mətanət Əmrahova, dos. Hümeyra Mustafayeva, dos. Gülbəniz İsmayılzadə, Suad Babayeva, Zəhra Mürsəlova, Nuranə İsgəndərova, Fəqanə Əhmədova, Kəmalə Seyfiyevaya təşəkkür edirik.

**Nihat**

**Əmək qabiliyyətli yaşda olan əhali sayının artımı ilə müqayisədə yaşlanma daha sürətlə baş verir.**



# Azərbaycanda əhalinin yaşlanması sürətlənib

Bu barədə Hesablama Palatasının Dövlət Sosial Müdafiə Fondunun 2023-cü il üçün büdcə layihəsinə bu gün dərc edilən rəyində deyilir.

Qeyd edilir ki, pensiya təminatı sisteminin qiymətləndirilməsində nəzərə alınması zəruri hesab edilən göstəricilərdən biri də yaşlılıq asılılığı əmsalıdır (old age dependency ratio).

Bu göstərici iqtisadi cəhətdən qeyri-fəal yaşda (65 yaş və yuxarı) olan insanların sayının əmək qabiliyyətli yaşda (15-64 yaş) olan insanların sayına nisbəti kimi müəyyən edilir.

2021-ci ilin 01 yanvar tarixinə əmək qabiliyyətli yaşda olan hər 100 nəfərə 10,7 65 yaşdan yuxarı yaşda şəxs düşdüyü halda, 2022-ci ilin müvafiq dövründə bu göstərici 11,3 olmuşdur ki, bu dinamika ölkədə əmək qabiliyyətli yaşda olan əhali sayının artımı ilə müqayisədə yaşlanmanın daha sürətlə baş verdiyini əks etdirir.

*Qeyd edək ki, 2020-ci ildə 65 yaşdan yuxarı əhalinin ümumi əhalinin 7,2%-ni təşkil etdiyi halda 2021-ci ildə bu göstərici 0,2 faiz bəndi artaraq 7,4% olub.*

*65 yaşdan yuxarı əhalinin ümumi pensiyaçı sayına nisbəti kimi müəyyən edilən münasiblik əmsalı 2020-ci ilə müqayisədə 2021-ci ildə 5 faiz bəndi artaraq 66,6% olmuşdur ki, bu artım ölkədə yaşlanmanının baş verdiyini əks etdirir.*

# Təhsildə tərbiyə, yoxsa tərbiyədə təhsil?

## Cəmiyyətimizin azad düşüncəsi olan gənclərə çox ehtiyacı var

**Günümüzün ən həssas movzusu təhsil və tərbiyədir. Təbii ki, tərbiyə daha köklü ifadədir. Təhsildən əvvəl gəlməlidir. Ancaq mən tam olaraq belə fikirləşmirəm. Niyəsini bir qədər sonra izah edəcəm. Bəs yaxşı, günümüzdə insanlar bu normativi saxlayırmı? Yaxud bunun üçün düzgün vasitələr tətbiq edirlərmi?**

Bilirik ki, tərbiyə insan doğulandan tətbiq edilməyə başlayir. Özümüz nə gör?rüksə, onu da tətbiq edirik. Əlbəttə ki, bu, hərtərəfli özünü göstərir. Məsələn, ziyalı ailəsində doğulan uşaq əlbəttə ki, avara olmayacaq. Ya da belə bir nümunə gətirək, ətrafında ümumiyyətlə təhsildən xəbəri olmayan, əvəzində oxumağa "əlavə vaxt itkisi" kimi baxan cahil insanlar da var təəssüf ki. O azmış kimi ailəsində biri oxumaq istəyir, qayıdıb "otur oturduğun yerdə, qız uşağı neynir oxumağı!" deyib, həmin gənclərin arzularını gözündə qoyanları da çox görmüşəm. Halbuki, həmin uşaq öz əziyyəti ilə bu uğuru əldə etmişdi, dəstək görsəydi bəlkə də oxuyub bitirib vətənimiz üçün necə gözəl işlər görə bilərdi... Çox təəssüf hissi ilə bu cür halların hələ də qaldığını deyirəm. Çıxış olaraq isə tez-tez maarifləndirici çıxışların aparılmasında görürəm. Buna görə ki, 5-10 il əvvəl bu cür hallar 2 qat cox idi, indiki dövrdə isə hansısa ucqar rayonda, yaxud hansısa köhnə fikirli ailədə baş verir.

Məşhur yazıçı Lev Tolstoy deyir: "Tərbiyə ilə təhsil ayrılmazdır. Bilik vermədən tərbiyə etmək olmaz. Hər cür bilik isə tərbiyəvi təsirə malikdir".

Uşaqlara tərbiyə veriləndə təhsili də nəzərə almaq lazımdır. Tutaq ki, 3-4 yaslı uşağın əlinə telefon ver oyun oynasın, bir də dəftər ver nəsə yazmağı öyrənsin. 10 il sonra nəticəni daha aydın görmək mümkündür. Təbii ki, biri uğurunu təhsildə, digəri isə sosialda məşhurlasmaqda görəcək. Biri uçuruma, biri zirvəyə aparacaq qədər fərqli səviyyədə ziddiyyət. Bəzi valideynlər də görmüşəm ki, uşağına güldən ağır söz deyilməməsi üçün gündə bir müəllim dəyişir. Guya ki, övladının daha uğurlu bir gələcəyi üçün ən yaxşısını edir. Halbuki, övladına özü təhsili aşılamadığı, yaxud təhsilə səhv aspektdən baxdığı üçün müəllimin metoduna şübhə edir. Hesab edir ki, bahalı repetitor 10 qat biliklə təmin edəcək övladını. Sonda isə əksər belə uşaqlar hec bir nəticə əldə etmədiyi üçün ən yaxşı halda cəmiyyətin adi bir üzvünə çevrilir. Niyə ən yaxşı halda dedim, çünki belə bir mühitdə böyüyüb, heç bir nəticə əldə etməyən uşaqların çoxunu pis vərdişlər aludəçisi görmüşəm. Bunun da ən böyük günahkarı çox vaxt yenə də valideynlər olur. Götürə bilmədiyi öhdəliyi övladına yükləmək istəyən valideynlər. Əvəzində övladının uşaqlıqdan düşüncələrinə hörmət edərək o sahədə



yönləndirsəydi daha fərqli nəticə əldə edə bilərdi.

İndi isə bunun əksi bir nümunə gətirim. Elə valideynlər də görmüşəm ki, uşaqlarını kiçiklikiyindən elmə, təhsilə yönüml? böyüdürlər. 4 yaşında bir uşağa "bu tapşırığı həll eləsən, sənə istədiyin hədiyyəni alacam, ya da başqa sürpriz edəcəm. "Bu sözdən sonra təbii ki, uşaqda həvəs daha da çoxalır. Fərqi yoxdur kiçik, yaxud böyük mükafat, əsas odur uşağın təhsilə yönümlü olmagı üçün həvəsləndirici nələrsə etmək lazımdır. Ola bilər ki, ailə imkan cəhətdən də yaxşı vəziyyətdə olmasın və övladının hər istəyini qarşılaya bilməsin. Ancaq yenə də sözü, məsləhəti, əlindən gələni edərək övladının təhsilə marağını artıran valideynlər də az deyil.

Bu saydığım halların istisnalarını da danmaq olmaz. Bəzən elə olur ki, övlad şiddət görür, yaxud şiddət gördüyü bir ailədə böyüyür. Onunla maraqlanan, təhsilinə köməklik göstərən valideynlərə sahib olmur. Ancaq cəmiyyətin, yəni müəllimlərinin dəstəyi ilə gələcəkdə gözəl peşəyə sahib olaraq böyük uğurlar əldə edir. Hərdən elə də olur ki, uşaq ziyalı müəllim ailəsində böyüməsinə baxmayaraq gözlənilən uğuru əldə edə bilmir, yaxud o potensiala sahib olmur.

Uşaqlıqdan məktəb həyatımızda əlbəttə ki, sevdiyimiz və sevmədiyimiz müəllimlər olub. Hətta müəllimə görə sevdiyimiz, yaxud əksi, maraqsız gələn fənn olub. Birinin danışığı, davranışı, ya da etikası belə bizə xoş gəlməyən bir müəllimin fənni bizə bir addım uzaq olub. Bu da ondan irəli gəlir ki, müəllim təhsildə düzgün tərbiyə metodunu tətbiq edə bilmir bəzən. Elə bilir ki, uşağa qışqırmaqla, hökm etməklə, yaxud da üstünlüyünü gözə soxmaqla öz peşəsini tədris edəcək. Diqqət yetirsək belə müəllimlərin uğuru digərlərindən həmişə az olur. Əksinə, təhsilə tərbiyəvi yanaşan müəllimləri isə həmişə üstün tuturlar. Burdan belə bir məsələ aydın olur ki, tərbiyədə təhsili necə sevdirməliyikə, təhsildə də düzgün və ən uyğun şəkildə tərbiyəni təhsillə bərabər aşılamaq lazımdır. Hər ikisi bərabər tətbiq olanda nəticədə cəmiyyətimizdə elit təbəqə çoxalır. Elmini, biliyini tərbiyəli şəkildə tətbiq edən gənclər həmişə sayılıb-seçilən insanlar hesab olunur.

Sonda isə demək istəyirəm ki, cəmiyyətimizin öz azad düşüncəsi olan gənclərə çox ehtiyacı var. Təəssüf ki, hələ də valideyn tərəfindən yönləndirilən gənclər az deyil. Burdan belə nəticə çıxarmaq olar ki, onlara uşaqlıqdan düzgün istiqamət verən olmayıb, ya da ki, hələ də böyüyüb formalaşa bilmirlər.

Sədi Şirazi demiş: "Tərbiyəsiz istedad heyifdir, istedadsız tərbiyə isə mümkün deyildir".

**Bəkirli Röyanə,**
**BDU-nun jurnalistika fakültəsinin magistr pilləsinin 1-ci kurs tələbəsi**



## "Orada Musayev imzası varsa, zəif və mənfi nəsə ola bilməz"

Könül Kərimova Təranə və Musa haqda gözlənilməz açıqlama verdi

**Əməkdar artist Könül Kərimova illərdir küsülü olduğu Təranə Qumral və Musa Musayev cütlüyü haqda açıqlaması ilə diqqət çəkib.**

"Səhər mərkəzi" proqramında qonaq olan müğənniyə şou-biznesdəki duet ortaqları haqda sual ünvanlanıb. Təranə və Musanın şəklini görən Kərimova "Çox gözəl, qəşəng. Orada Musayev imzası varsa, zəif və mənfi nəsə ola bilməz. Gözəl də qarşılanır, göz önündədir. Gözəl sevgi qazanıblar. Səmimi etiraf edirəm" sözlərini deyib.

*Qeyd edək ki, Təranə ilə Könül illərdir küsülüdürlər. Bir neçə il əvvəl isə Təranə Könülün yer aldığı verilişdə qəfildən studiyaya girərək, yalandan telefonunu orada unutduğunu deyib. Kərimova isə həmin an studiyanı tərk etmək istədiyini söyləyib. K.Kərimova daha sonra sosial şəbəkədə onu qınayanlara "Siz həqiqəti bilsəniz, həyata, insanlığa nifrət edərsiniz. Ən azı yazdıqlarınıza görə utanarsınız. Şükr edirəm ki, həmin an ürəyim dayanmadı. Allah mənə güc verdi. Nə isə. Hər şey yaxşıdır" cavabını verib.*

# "Zibilliklər çörəklə doludur"

Akif İslamzadə bahalaşmada xalqı günahlandırdı



**Dünyada olduğu kimi, ölkəmizdə də bahalaşma davam edir. Ümumiyyətlə, il ərzində bahalaşma tendensiyası heç bir ay da səngiməyib, əksinə, hər keçən ay müddətində bir az da yüksələn xətt üzrə inkişaf edib. İlin başa çatmasına isə az qalır. 2022-ci il yaxın tarix ərzində ən böyük bahalaşma ili olaraq yadda qalacaq.**

Bəs görəsən, böyük hissəsi özünün bazarlıq etmədiyini deyən sənət adamları bahalaşmadan xəbərdardırlarmı?

Mövzu ilə bağlı Yenisabah.az-a danışan müğənni Akif İslamzadə bu bahalaşmanın birbaşa israfçılıqla əlaqəli olduğunu deyib:

"Elə mən də marketə, bazara getməyən sənətçilər sırasındayam. Ona görə hansı məhsulların qiymətinin artdığından, bahalaşmadan xəbərim yoxdur. Amma bilirəm ki, bahalaşma bütün dünyada gedir. Bu proses hər yerdə gedir və bu hələ başlanğıcdır. Vəziyyət daha da pisləşəcək. Bunun qarşısını almaq üçün başını aşağı salıb işləmək, güclü olmaq lazımdır. Qıtlıq zaman-zaman hər cəmiyyətdə olur, bu, dünyada gedən proseslərdən asılıdır. Ona görə də xalqımız daha zəhmətkeş olmalı, çörəyin qədrini bilməlidir. Gedin küçələrdəki zibil yeşiklərinin ətrafına baxın, görün nə qədər çörək tullanır. İsrafçılıq bütün dünyada yayılıb, içi mən qarışıq hər kəs israfçılıq edir.

30 il bundan əvvəl ayda bir kiloqram yağ verirdilər, talonla insanlara ət verirdilər, bəs onda necə dolanırdılar? Bütün bu hadisələrin səbəbi israfçılıqdır, məsələnin kökündə məhz bu dayanır".

## Hər gün qəbirə uzanaraq yatır

Ölməzdən əvvəl özünün və arvadının məzarlarını hazırlayıb

(Əvvəli səh: 16-da)

**Xalasının 100 il yaşadığını qeyd edən Firdevs Ünal sözünə davam edir: "15 yaşında burada gəlin oldum, həyat yoldaşımla birlikdə böyüdük.**

Düşünürəm ki, mən də xalam kimi 100 il yaşayacağam. Xalam hələ də sağdır".

Kəndin muxtarı Şaban Yamalı isə əvvəlcə təəccüblənib: "Onlar İstanbuldan gəliblər. Bir gün mənə zəng edib dedi ki, məzarını tikdirəcək. Biz də təəccübləndik, belə bir şey ola bilərmi? Ondan sonra gördük ki, düzəldib. Hərdən mənə zəng edib deyir ki, yatmağa qəbiristanlığa gedirəm. Bəzən bir araya gəlirik, yanında otururam, mən gedəndən sonra bir az yatır, sonra evə gedir. Əvvəlcə bir az qəribə gəldi, amma öyrəşdik. Həyat yoldaşı ilə birlikdə məzarlarını tikdirdilər, indi hamımız bunu normal qəbul edirik. Yaxşı qonşulardı, hamımız bu ailəni çox sevirik".

**Turan**

**Elan**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Təhlükəsizlik İdarəsinin əməkdaşı, mühafizəçi Yusufov Rauf Natiq oğluna məxsus 2010-cu ilin 27 mart tarixində verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

Rzayev Nizami Teyfur oğluna məxsus Qarabağ müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

"GÜNAY" İstehsalat-Ticarət MMC-nin (VÖEN: 1700248881) fəaliyyətinə xitam verilərək "G CO 3" MMC-yə (VÖEN: 1307189371) qoşulduğunu və "GÜNAY" İstehsalat-Ticarət MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

# 10 dəfə çəkin və üfürün!

Yuxu pozğunluğunu tənzimləyir, stresin qarşısını alır, immuniteti gücləndirir, tez arıqlamağa kömək edir



(Əvvəli səh: 16-da)

**Düzgün tənəffüs texnikalarının yuxu pozğunluğunu önlədiyinə dair məlumat verən Vəfa Öztürk, "Yuxu pozğunluğu gecələr yaxşı nəfəs ala bilməməkdən qaynaqlanır. İnsanlar tənəffüs yolları daraldığı üçün yuxu problemi ilə üzləşirlər. Yaxşı nəfəs isə yuxumuzu tənzimləyir və gecəni keyfiyyətli keçirməyimizə şərait yaradır. Yaxşı yuxu üçün oksigenə ehtiyac olduğu kimi, bədənin yağ yandırmaq üçün də oksigenə ehtiyacı var. Hüceyrələrə çatan oksigen miqdarı artdıqca, yağ molekullarının yanması asanlaşır. Beləliklə, insan daha tez arıqlaya bilər" deyə bildirir.**

## Bütün orqanlara faydalıdır

Triflo düzgün nəfəs almağa imkan verdiyi üçün xəstəliklərin sağalmasına kömək edir. İstifadəsi sadə və ucuz olan triflo ilə məşqlər zamanı alınan dərin nəfəslər nəticəsində ağciyərlərə bol hava daxil olur. Beləliklə, daha çox oksigen bədəndəki toxumalara çatır. Bu yolla hüceyrələrin maddələr mübadiləsi sürətlənir, damarlar genişlənir və qan axını artır.

"Triflo xüsusilə atelektaz (ağciyərin bütün və ya bir hissəsinə hava ala bilməmək) xəstələri üçün faydalıdır. Çünki bu xəstələrdə ağciyərin son hissəsində yapışmalar var. Triflo sözügedən yapışmanın açılmasında ən vacib alətdir. Bundan başqa, triflo əksər əməliyyatlardan sonra xüsusilə ürək və ağciyər əməliyyatlarından sonra ən önəmli vasitədir. Çünki bu əməliyyatlardan sonra anesteziya səbəbiylə ağciyərlərdə ciddi yapışmalar yaranır. Triflo həm bunun qarşısını alır, həm də tənəffüs əzələlərini gücləndirir. Xüsusilə də son illərdə "Kovid-19" səbəbiylə xəstələrin müalicə müddəti və kortizon istifadəsi əzələ zəifliyinə səbəb olub. Bu prosesdə Triflodan da istifadə olunur.

## İstifadəsi çox sadədir

Triflonun ağciyər xəstəlikləri və ağciyər sağlamlığı üçün çox əhəmiyyətli olduğunu vurğulayan Öztürk, "İstifadəsi çox sadədir. İnsanlar gündəlik həyatda triflodan istifadə edərək nəfəs məşqləri edə bilərlər. Xəstələnməmişdən əvvəl həmişə ehtiyat tədbirləri görmək çox vacibdir. Sağlam həyat üçün müntəzəm olaraq yeridiyimiz və yemək yediyimiz kimi, ağciyərlərimiz üçün də triflodan istifadə etmək çox vacibdir".

Triflo ilə nəfəs məşqlərinin çox sadə olduğunu qeyd edən Vəfa Öztürk sözlərinə belə davam edir: "Triflo içərisində üç top olan plastik bir cihazdır. Üfləyicisi var. Əvvəlcə ağız boşluğundan birbaşa cihaza üfürür və topları qaldırmağa çalışırıq. Burada vacib olan bütün topları çıxarmaq deyil, onları qaldırmağa çalışmaqdır. Məşqi 10 dəfə çəkərək və 10 dəfə üfürməklə iki şəkildə həyata keçiririk. Gündə ən az 4 dəfə bunu etməyin ağciyər sağlamlığına böyük faydası var. Ancaq çox ciddi ürək xəstəliyi, ağciyər kollapsı və tənəffüs çatışmazlığı olanlar istifadə edərkən daha diqqətli olmalıdırlar. Qalan hər kəs rahatlıqla triflodan istifadə edə bilər".

## "Dördüncü gündə faydasını gördüm"

Sinə cərrahı, mütəxəssis Rüya Acaroğlu deyir ki, triflonun getdikcə geniş yayılması ictimai şüura da təsir edir. Bu mövzuda sosial mediada məlumat verən Acaroğlu instaqram hesabında triflodan istifadə edənlərin həyatındakı dəyişiklikləri paylaşır. Bu mesajların ən diqqət çəkəni 2 ildir həll edə bilmədiyi çırpınma problemini triflo ilə aradan qaldıran istifadəçidir. Mesajında iki aydır cihazdan istifadə etdiyini və ilk dörd gündə faydalarını görməyə başladığını bildirən istifadəçi "Kardioloqlar dedilər ki, heç bir xəstəliyiniz yoxdur, yaşadığın stresdən qaynaqlanır. Ürəyimin döyüntüsü hər səhər 125-135 idi. İki aydır triflodan istifadə edirəm. Hazırda ürək döyüntülərim 100-ə çatır. Dörd gündə faydasını gördüm. Pilləkənləri qalxıram, üzürəm və heç yorulmuram" deyə qeyd edir.

Başqa bir mesajda isə "Bütün ailəm üçün triflo aldım. Bizim triflolar zalın ortasında dayanır. Vaxtımız olanda bir-birimizə xatırladıb üfürürük. 9 yaşlı oğlumun bu həftə allergiya səbəbiylə burnu şişdi. Baxdım o, triflonu götürdü. "Triflo xəstəliyimi sağaldır, ana" dedi. O, əslində bunu 2-3 dəfə edib və istirahət etməyə başlayıb. Burun ətləri sağaldı, öskürək və bəlğəm başladı. Bəlğəmi çıxara bilmirsə, dərhal triflonu üfürməyə başlayır və asanlıqla çıxarır.

## Bu xəbərdarlıqlara diqqət!

İnstaqram hesabında triflo istifadəsini təfərrüatlı şəkildə izah edən Acaroğlu izləyicilərinə bəzi xəbərdarlıqlar da edir. Triflo istifadəçilərinin gigiyena baxımından xüsusilə diqqətli olmaları şərtdir deyən mütəxəssisin xəbərdarlıqları belədir:

- Triflonun içinin tozlanmaması çox vacibdir. İstifadə etməzdən əvvəl, ağciyərlərə zərər verə biləcək zibil üçün boruları yoxlayın.
- Bundan əlavə, filtr süngərinin nəfəs borusuna qaçmaması üçün diqqətli və şüurlu istifadə lazımdır.

**Turan**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3168



## 30 milyon dollar qazandı

Lotoreyanın qalibi uduşunu ailəsinə bildirməyəcək

**Çində lotoreyada 30 milyon dollar qazanan şanslı qalib, pulun onları təkəbbürlü və tənbəl edəcəyini düşündüyü üçün arvadına və uşağına qazandığını söyləməyəcəyini açıqlayıb.**

"Şərq" "İndia Times" qəzetinə istinadən xəbər verir ki, lotoreya qalibi hər biri 11 dollar olan 40 ədəd lotoreya kuponunu eyni nömrələrlə doldurub.

Kuponlardan 30 milyon dollar qazanan və mükafatını alarkən kimliyini gizlətmək üçün cizgi filmi personajı seçən şəxs pulun onları tənbəl və təkəbbürlü etdirəcəyini düşündüyü üçün ailəsinə qazandığını söyləməyəcəyini deyib. Oktyabrın 24-də mükafatı alan şanslı qalib xeyriyyə təşkilatlarına 685 min dollar bağışlayıb. Vergi və ianələrin azaldılmasından sonra lotoreya qazanan şanslıya 24 milyon dollar qaldığı bildirilib.

**Turan**

## Van Damm yeni filmə çəkiləcək

Əsas çəkilişlər 2023-cü ilin əvvəlində başlayacaq



**Aktyor Jan-Klod Van Damm "Silent Kill" ("Səssiz qətl") döyüş filmində rol alacaq.**

Oxu.az xəbər verir ki, filmin ssenari müəllifi və rejissoru Entoni Hikoksdur.

Ekran əsəri Konqoda xəzinə gizlədən dörd muzdludan bəhs edir. Qəhrəmanlar xəzinəni basdırır və qəniməti bölüşmək üçün 3 ildən sonra eyni yerdə görüşməyə razılaşırlar. Lakin hər şey plana uyğun getmir.

Filmində həmçinin Vernon Devis, Rafael Amaya və Madalina Qenea da çəkiləcəklər.

Van Damm hmçinin Horam Moreka ilə birlikdə prodüser kimi çıxış edəcək.

Əsas çəkilişlər 2023-cü ilin əvvəlində başlayacaq.



# Hər gün qəbirə uzanaraq yatır

## Ölməzdən əvvəl özünün və arvadının məzarlarını hazırlayıb

**Türkiyənin Kastamano şəhərinin Taşköprü rayonunda yaşayan Firdevs və Erol Ünal cütlüyü öləndən sonra məzarları yan-yana olsun deyə işlərini əvvəlcədən görüblər.**

Firdevs (49) və Erol Ünal (56) cütlükləri uzun illər İstanbulda işlədikdən sonra 7 ay əvvəl kəndlərinə qayıdıblar. Xəstəlikləri səbəbindən ölümü düşünməyə başlayan cütlük uşaqları olmadığı üçün ölməmişdən əvvəl məzarlarını hazırlamağ qərar verib. Erol Ünal 35 il başını bir yastığa qoyduğu və çox sevdiyi həyat yoldaşı Firdevs Ünalla yan-yana ola bilmək üçün kənddə məzarları tikdirib. Məzar daşında "Yaxşı gündə də, pis gündə də bir yerdə olduq" sözləri olan Erol Ünal hər gün ziyarət etdiyi məzara girərək yuxuya gedir. Kənddə yaşayan vətəndaşlar Erol Ünalın ölməzdən əvvəl tikdirdiyi türbədə dəfn olunduğunu ilk öyrəndikdə şoka düşdüklərini bildiriblər.

**Erol Ünal deyir ki, İstanbulda xidmətçi işləyib:** "Zibil yığırdım. Sağa-sola gedib millətə xidmət etmişəm. Fikirləşib köçdük, dedik indi yorulmuşuq, gəldim kəndimə. 6-7 ay keçdi, ağlıma ölüm gəldi. Dedim ki, ölməmişdən qabaq qəbir yerlərimi düzəldəcəm. Heç kimə yük olmayacağam, öz işimi özüm görüm dedim".

Həyat yoldaşını razı salmaqda çətinlik çəkən Erol Ünal nəhayət onu yola gətirib: "Lövhələr çürüyə bilər, ona görə də daşları mərmərdən düzəltdim ki, möhkəm olsun. Hərdən qəbiristanlığa gedib-gəlirəm. Qəbirə baxıram, orada uzanıram, yorulanda dincəlirəm. Vaxtımı burada keçirirəm".

Firdevs Ünal isə "İşlədik, təqaüdə çıxandan sonra kəndimizə gəldik. Qəbirlərimizi tikdirmək qərarına gəldik. Uşaqlarımız yoxdur. Bəlkə məzarımızı düzəldə bilməzlər, biz istəyirdik ki, hazır olsun. Biz bir-birimizi çox sevirik, çox razıyıq. Bəyənməsəydim, bu ilə qədər dayanmazdım. Xəstəliyə görə əməliyyat




olunacaqdım. Əməliyyata gedəndə bunu dedi, şoka düşdüm. Sonradan qərara gəldik, bu işi görək. Hərdən bura gəlirəm, ilk görəndə təlaşlandım, amma zaman keçdikcə öyrəşdim. Biz bir araya gəlirik, burada otururuq. Qəbirləri təmizləyirik. Bir gün mənə zəng edib qəbiristanlığa getdiyini dedi. O, məzarda yarım saatdan çox yatıb" deyə bildirir.

*(Davamı səh: 15-də)*

**Turan**

## Çağatay Ulusoy evlənir



**Türkiyəli aktyor Çağatay Ulusoy evlənir.**

**Axşam.az xəbər verir ki, aktyor uzun müddətdir sevgili olduğu həmkarı Duyğu Sarışınla nikah masasına əyləşməyə hazırlaşır. İddiaların yaranmasına səbəb isə cütlüyün birlikdə mağazalarda özlərinə yeni ev əşyaları baxaraq almaları olub. İkilinin yazda evlənəcəyi bildirilib.**

## Kenan Acar "Yasak elma"dan gedir



**Reytinqli seriallardan biri olan "Yasak elma"nın heyətində dəyişiklik edilib.**

**Axşam.az xəbər verir ki, ekran işində rol alan aktyor Kenan Acar layihədən ayrılır. O, serialda Altay obrazına həyat verirdi.**

***Qeyd edək ki, ekran işinin baş rollarını Eda Ece, Şevval Sam canlandırır.***



# 10 dəfə çəkin və üfürün!

Yuxu pozğunluğunu tənzimləyir, stresin qarşısını alır, immuniteti gücləndirir, tez arıqlamağa kömək edir

**Bir çox xəstəliklərin sağalmasına kömək edən Triflo son vaxtlar bütün diqqətləri üzərinə çəkib. Üstəlik, sirr yalnız nəfəsdən düzgün istifadə etməkdə gizlənir. Hər gün triflo ilə idman edənlər yaşadıqları dəyişiklikdən danışırlar.**

Sağlam həyat üçün düzgün nəfəs almaq çox vacibdir. Çünki hər düzgün nəfəslə ağciyərlərdən orqanlara gedən oksigenin miqdarı artır, toxumaların regenerasiya müddəti isə sürətlənir. Beləliklə, toxumalarda yığılan toksinlərin təmizlənməsi təmin edilir. Başda beyin olmaqla bütün orqanlar bu vəziyyətdən müsbət təsirlənir.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, döş qəfəsi xəstəlikləri mütəxəssisi Ali Vəfa Öztürk bunları deyir: "Hər orqanın oksigenə ehtiyacı olduğu halda, karbon qazının bütün orqanlardan çıxarılması şərtdir. Aldığımız düzgün nəfəslə qan dövranında olan karbon qazını da xaric edə bilərik. Beləliklə, aldığımız havadan daha yaxşı istifadə edə bilərik. Buna görə düzgün nəfəs almaq çox vacibdir".

*(Davamı səh: 15-də)*

**Turan**

## Qızıl və gümüş kimi!

Bir qramı 12 dollara satılır



**İki uşaq atası jurnalist Yücel Çakmak 2013-cü ildə İstanbulda Beyazıt meydanında gəzərkən piştaxtada satılan təsbehlərdən bir neçəsini alıb.**

Doğma şəhərinə qayıdan Çakmak təsbeh kolleksiyası yaratmaq qərarına gəlib. Növlərinə görə təsbeh alan Çakmak 9 ildə 700-ə yaxın təsbeh toplayıb. Çakmak evdə heyvan mənşəli məhsullardan, ağacdan və təbii metallardan hazırlanmış 33, 45 və 99 ədəd təsbehləri sərgiləməyə başlayıb. Çakmak ağacdan hazırlanmış təsbehləri badam yağı ilə silir və saxlayır.

İstanbuldan aldığı təsbehlərdən sonra bu işi hobbiyə çevirdiyini açıqlayan Yücel Çakmak, "Növlərinə görə toplamağa başladım. İlk olaraq təsbehlə başladım. Daha sonra əqiq, firuzə kimi təsbehlər yığdım. Kərgədan buynuzu, qoç buynuzu, maral buynuzu, dəvə sümüyü, fil sümüyü, sıxılmış kəhrəba, odlu kəhrəba, katalin və təbii ənbər təsbehlərim var" deyə bildirir.

**Topladığı muncuqların xüsusiyyətlərindən danışan Çakmak sözlərinə əlavə edib:** "Təbii kəhrəba, torpaqdan çıxan 300 milyon illik daşlar var. Litvanın təbii kəhrəbası var. Bunlar qızıl və ya gümüş kimi qramla satılır. Hazırda qramı 12 dollardır".

**Turan**